AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

19 YANVAR 2019-cu il ŞƏNBƏ № 14 (6341) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətini optimallaşdırmaq, strukturunu və idarə edilməsini daha da təkmilləşdirmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun nəzdində "Yetkinlik yaşına çatmamış görmə imkanı məhdud şəxslər üçün Bərpa Mərkəzi", "Baxımsız, kimsəsiz və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar üçün Sosial Sığınacaq və Reabilitasiya Müəssisəsi" və "Yaşayış yeri olmayan 18 yaşdan yuxarı şəxslər üçün Sosial Sığınacaq" sosial xidmət müəssisələrinin əsasında vahid qurumun yaradılmasını bir ay müddətində təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.2.* "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanının 1.1.5-ci yarımbəndində verilmiş tapşırığın icrasını ən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla təmin etsin;

*1.3.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.4.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.5.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.6.* bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

*2.1.* Nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun nəzdində "Yetkinlik yaşına çatmamış görmə imkanı məhdud şəxslər üçün Bərpa Mərkəzi"ndə, "Baxımsız, kimsəsiz və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar üçün Sosial Sığınacaq və Reabilitasiya Müəssisəsi"ndə və "Yaşayış yeri olmayan 18 yaşdan yuxarı şəxslər üçün Sosial Sığınacaq" sosial xidmət müəssisələrində işləyən işçilərin bu Fərmana əsasən yaradılacaq vahid qurumda müvafiq vəzifələrə təyin edilməsi ilə bağlı tədbirlər görsün;

*2.2.* Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək və Sosial Problemlər üzrə Elmi Tədqiqat və Tədris Mərkəzinin ləğv edilməsi ilə bağlı bir ay müddətində tədbirlər görsün;

*2.3.* bu Fərmanın 2.1-ci və 2.2-ci bəndlərində nəzərdə tutulan tədbirlərin nəticəsi barədə bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 18 yanvar 2019-cu il.**

# İdarəetmədə sistemli islahatlar: struktur yeniliklərində növbəti mərhələ




***Azərbaycanda demokratik dövlət quruculuğu kursunun əsasını Ulu öndər Heydər Əliyev qoyub. Bu prosesi Prezident İlham Əliyev uğurla davam etdirir. Dövlət başçısı həm ölkənin daxili tarixi təkamül dinamikasını, həm də dünya təcrübəsini nəzərə alaraq davamlı islahatlar həyata keçirir. Həmin bağlılıqda İlham Əliyevin yanvarın 14-də imzaladığı Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərmanı ciddi əhəmiyyət daşıyır. Ekspertlər həmin Fərmandan irəli gələn vəzifələri həm dövlət quruculuğu kursunun inkişaf etdirilməsi çərçivəsində, həm bütövlükdə idarəetmədə aparılan islahatların Azərbaycanın beynəlxalq aləmdə imicinin formalaşmasında oynadığı rol kontekstində analiz edirlər. Məsələnin bu aspekti üzərində geniş dayanmağa ehtiyac duyuruq.***

### Daha təkmil idarəetmə: daxili potensialın maksimum səfərbərliyi

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında milli dövlətçiliyin inkişafı baxımından çox aktual olan məsələlərdən bəhs edib. Dövlət başçısı sürətlə dəyişən müasir dünyada daha uğurlu və səmərəli fəaliyyətin ümumi prinsiplərini bir daha bəyan edib. Konkret sahələr üzrə qarşıda duran vəzifələrin həlli üçün çevik, məqsədyönlü və səmərəli fəaliyyətlə bağlı reallaşdırılmalı olan islahatları vurğulayıb.

Təbii ki, Prezident İlham Əliyev əldə olunan böyük nailiyyətləri vurğulayıb. Onların Azərbaycan dövlətçiliyinin inkişafı, vətəndaşların rifahı, iqtisadi tərəqqinin sürətləndirilməsi istiqamətində oynadığı rolu xüsusi qeyd edib. Bunlarla yanaşı, Azərbaycan qarşısına daim irəliləyiş məqsədini qoyan dövlətdir. Azərbaycan üçün təkmilləşmənin sonu yoxdur. Bu səbəbdən də ölkə rəhbəri idarəetmə sahəsində yeni islahatların həyata keçirilməsi zərurətini də ifadə edib.

Dövlət başçısı Nazirlər Kabinetinin bəhs olunan iclasında söylədiyi yekun nitqində vurğulayıb: "İndi struktur islahatı gözlənilir. Çünki indi idarəetmədə struktur köhnəlib. Yeni idarəetmə strukturu olmalıdır - daha çevik, daha yığcam, daha məqsədyönlü. Çünki illər boyu yeni qurumlar yaranır. Onlar yarananda o qədər də hiss olunmur. Biri orada, biri burada yarandı, bir agentlik, bir xidmət yarandı. Sonra da baxanda görürük ki, bizim idarəetmə strukturumuz böyük dərəcədə şişirdilib (bax: Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib / AZƏRTAC, 11 yanvar 2019).

Bu fikirlərdə demokratik idarəetmənin başlıca prinsipləri lakonik şəkildə ifadə olunub. Öncə, dövlət başçısı onu vurğulayır ki, hər bir yeni qurum yaratmaq özlüyündə demokratik idarəetməni təkmilləşdirməyə xidmət etməyə də bilər. Burada başlıca meyar kimi praktika götürülməlidir. Təcrübə göstərdi ki, bir sıra yeni yaradılan və müxtəlif sferalara aid olan təşkilatlar gözlənilən səmərəni vermir.

Bu səbəbdən həmin növ təşkilatların ləğv edilməsindən dövlət çəkinməməlidir. Çünki əsas olanı milli dövlətçiliyi və idarəetməni təkmilləşdirmək, dövrün tələblərinə uyğun daha çevik və səmərəli hala gətirməkdən ibarətdir. Prezident İlham Əliyev konkret və açıq surətdə vurğulayır ki, "...görürük ki, bizim idarəetmə strukturumuz böyük dərəcədə şişirdilib" (bax: əvvəlki mənbəyə).

Bu cür yanaşma demokratik idarəetmənin əsas qayəsini təşkil edir. Dövlət başçısı idarəetmədə şəffaflığı, yığcamlığı və demokratikliyi başlıca meyar kimi seçərək, ona dəqiqliklə əməl edir. Eyni qayda ilə Prezidentin idarəetmədə çalışan bütün kadrlardan məsuliyyətli, dəqiq və fəal olmağı tələb etməyə tam haqqı vardır.

**(davamı 2-ci səhifədə)**

# Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva "Üzeyir Hacıbəyli" fəxri medalı ilə təltif edilib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Azərbaycan Bəstəkarlar İttifaqının təsis etdiyi "Üzeyir Hacıbəyli" fəxri medalı ilə təltif edilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Bəstəkarlar İttifaqı Mehriban Əliyevaya Azərbaycan mədəniyyətinin inkişafında müstəsna xidmətlər göstərmiş dahi bəstəkar, müasir Azərbaycan musiqi sənətinin banisi, görkəmli musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim Üzeyir Hacıbəylinin zəngin irsinin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılmasına verdiyi əvəzsiz töhfələrə görə fəxri medalın ilk nüsxəsini təqdim etməyi qərara alıb.

Qeyd edək ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə 2005-ci ildə Üzeyir Hacıbəylinin anadan olmasının 120 illik yubileyi münasibətilə birinci muğam müsabiqəsi keçirilib. 2008-ci ildə dahi bəstəkarın həyat və yaradıcılığına həsr olunmuş "Üzeyir dünyası" layihəsi işıq üzü görüb. Həmin nəşrə "Ömür salnaməsi", "Üzeyir Hacıbəyli ensiklopediyası", "Bədii və publisistik əsərlər" kitabları, "Leyli və Məcnun", "Koroğlu" operaları və "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarının klavir, libretto və CD-ləri daxildir. Bunlardan əlavə, 2009-cu ildən etibarən ənənəvi olaraq bir çox ölkələrdən dünya şöhrətli musiqiçiləri bir araya toplayan Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı təşkil edilir.

2013-cü ildə Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə 1945-ci ildə dahi bəstəkar Üzeyir Hacıbəylinin eyniadlı operettası əsasında ağ-qara formatda çəkilmiş, Azərbaycan kino sənətinin əfsanəsi olan "Arşın mal alan" filmi bərpa edilərək rəngli versiyası hazırlanıb.

**AZƏRTAC**

# Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir

## *Dövlət başçısı cənab İlham Əliyev bildirib ki, dünyada və bölgədə gedən proseslərdən asılı olmayaraq Azərbaycan öz müstəqil yolu ilə, inkişaf yolu ilə uğurla gedir və gedəcək*

**2018-ci ildə yeni iqtisadi şəraitə uyğun həyata keçirilən rasional makroiqtisadi siyasət, aparılan köklü islahatlar, həyata keçirilən sistemli tədbirlər qlobal və regional risklərin neytrallaşdırılmasına imkan verdi. Ölkənin valyuta ehtiyatları maliyyə risklərinin qabaqlayıcı rejimdə idarə edilməsində əhəmiyyətli rol oynadı.**

**Dövlət başçısı cənab İlham Əliyevin müəyyən etdiyi strateji xəttə əsaslanaraq dayanıqlı iqtisadi inkişafın təmin olunması məqsədilə çevik, adekvat addımlar atıldı. Kompleks islahatların həyata keçirilməsi nəticəsində makroiqtisadi sabitlik möhkəmləndirildi, biznes və investisiya mühiti daha da yaxşılaşdırıldı. İqtisadiyyatın şaxələndirilməsi, regionların və sahibkarlığın inkişafı sürətləndi, qeyri-neft ixracı artdı.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlət başçısı bildirib ki, 2018-ci il ölkəmiz üçün uğurlu il oldu, dünyada və bölgəmizdə gedən proseslərdən asılı olmayaraq, Azərbaycan uğurla, sürətlə inkişaf etdi, keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr icra olundu, ölkənin hərtərəfli dinamik inkişafı təmin edildi: "Bildiyiniz kimi, keçən il dünyanın müxtəlif bölgələrində, o cümlədən bizim bölgəmizdə çox xoşagəlməz proseslər gedirdi; yeni risklər, yeni təhdidlər yaranır, əvvəlki illərdə başlanmış münaqişələr, qanlı toqquşmalar davam edir, bir çox yerlərdə sabitlik pozulur, kütləvi etiraz aksiyaları geniş vüsət alır. Bu mənfi mənzərə fonunda Azərbaycanın uğurları özünü daha da qabarıq şəkildə büruzə verir. Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir. Dünyada və bölgədə gedən proseslərdən asılı olmayaraq, Azərbaycan öz müstəqil yolu ilə, inkişaf yolu ilə uğurla gedir və gedəcək".

Ölkədə aparılan genişmiqyaslı iqtisadi islahatların nəticəsində 2018-ci ildə Ümumi Daxili Məhsul, yəni iqtisadi artım 1,4 faiz olub. Qeyri-neft sektoru 1,8 faiz artıb. İnflyasiya cəmi 2,3 faiz olub. İqtisadiyyatın şaxələndirilməsində xüsusi çəkisi olan qeyri-neft sənayesində 9,1 faiz, kənd təsərrüfatında 4,6 faiz artıma nail olunub. Bu, 2018-ci ildə həyata keçirilən iqtisadi islahatların müsbət nəticələridir və ölkə büdcəsinə daxilolmalar xeyli dərəcədə artıb. Beləliklə, ölkənin uğurlu inkişafı sürətlənib. Beynəlxalq təşkilatlar, dünyanın aparıcı maliyyə qurumları da Azərbaycanda gedən prosesləri yüksək dəyərləndirirlər. Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan dünya ölkələri arasında 25-ci yerdədir. Keçən illə müqayisədə ölkəmiz 32 pillə irəliləyib.

2018-ci ildə ölkənin valyuta ehtiyatları 3 milyard dollar məbləğində artıb. Hazırda ölkənin valyuta ehtiyatları 45 milyard dollardır. Xarici borc 22,8 faizdən 19 faizə düşüb. Bu o deməkdir ki, indi Azərbaycanın xarici borcu Ümumi Daxili Məhsulun 19 faizini təşkil edir. Qeyd edək ki, Azərbaycanın valyuta ehtiyatları xarici borcumuzu 4-5 dəfə üstələyir.

2018-ci il Azərbaycanın müasir tarixində mühüm əhəmiyyətə malik olan bir sıra layihələrin ərsəyə gəlməsi, o cümlədən nəhəng transmilli "Cənub Qaz Dəhlizi" layihəsi çərçivəsində "Şahdəniz-2" və TANAP layihələrinin uğurla reallaşması, "Azerspace-2" peykinin orbitə çıxarılması, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin, Sumqayıtda Polipropilen zavodunun, Azərbaycanın dövlət investisiyası ilə Türkiyədə böyük neft emalı zavodunun istismara verilməsi ilə də yola salınan ilin əlamətdar hadisəsi oldu. Dövlətimizin başçısı cənab İlham Əliyevin təşəbbüskarı olduğu bu layihələr qarşıdakı illərdə Azərbaycan iqtisadiyyatının inkişafında çox əhəmiyyətli yer tutacaq.

Ötən il dövlət və icmal büdcələrdə nəzərdə tutulan bütün sosial öhdəliklər, əsas Dövlət proqramları və prioritet kəsb edən layihələr tam həcmdə maliyyələşdirilib. Hesabat ilində dövlət büdcəsi xərclərinin 31,7 faizi və ya 7 milyard 197 milyon manatı sosialyönlü xərclərin payına düşür ki, bu da 2017-ci illə müqayisədə 506 milyon manat və ya 7,6 faiz çoxdur.

Dövlət başçısı cənab İlham Əliyevin sərəncamlarına uyğun olaraq ötən ilin mart ayından əhalinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə ölkədə sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin orta hesabla 10 faiz artırılması təmin olunub, dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışan işçilərin əməkhaqları da 10 faiz artırılıb. Bu tədbirlərin maliyyələşdirilməsi üçün dövlət büdcəsinə əlavə olaraq 446 milyon manat vəsait ayrılıb.

**(davamı 2-ci səhifədə)**

# Gənclər və idman naziri Abşeron rayonunda vətəndaşları qəbul edib

**Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov yanvarın 18-də Abşeron rayonundakı Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.**



Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbulda Sumqayıt, Abşeron, Qobustan, Şamaxı, Xızı şəhər və rayonlarının sakinlərinin gənclər, idman və digər sahələrlə bağlı müraciətlərinə baxılıb.

Gənclər sahəsi üzrə müraciətlər qeyri-hökumət gənclər təşkilatlarının yaradılmasına dəstək göstərilməsi, gənclərlə bağlı müxtəlif layihələrin maliyyələşdirilməsi, gənclərin beynəlxalq layihələrdə iştirakı, yay-qış istirahət düşərgələrinin təşkili, Gənclər mərkəzlərinin müvafiq avadanlıqla təmin edilməsi, fəaliyyəti və s. məsələləri əhatə edib.

İdman sahəsi üzrə müraciətlər isə fəxri adların verilməsi, idman mərkəzlərinin lazımi avadanlıqla təminatı, yeni Olimpiya İdman komplekslərinin, idman mərkəzlərinin tikintisi və təmiri, Uşaq Gənclər və İdman mərkəzlərinin (UGİM) və bölmələrinin yaradılması, idmançıların beynəlxalq yarışlarda iştirakı və s. məsələlərlə bağlı olub.

Müraciətlərin bir qismi yerindəcə həllini tapıb. Araşdırılmalı olan məsələlər isə aidiyyəti qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.

**AZƏRTAC**

# Zimbabvenin Prezidenti Emmerson Mnanqaqva Azərbaycana işgüzar səfərə gəlib

**Zimbabve Respublikasının Prezidenti Emmerson Mnanqaqva yanvarın 18-də Azərbaycan Respublikasına işgüzar səfərə gəlib.**



AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Zimbabve Respublikasının Prezidenti Emmerson Mnanqaqvanı hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Ramiz Həsənov və digər rəsmi şəxslər qarşıladılar.

**AZƏRTAC**

# Ali Məhkəmə Plenumunun növbəti iclası keçirilib

**Yanvarın 18-də Ramiz Rzayevin sədrliyi ilə Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.**



AZƏRTAC xəbər verir ki, Plenumun iclasında 2018-ci ilin birinci yarımilliyində respublikanın birinci və apellyasiya instansiya məhkəmələri tərəfindən təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi və həbsdə saxlanılma müddətlərinin uzadılması haqqında təqdimatlara baxılarkən qanunvericiliyin tətbiqi təcrübəsinin ümumiləşdirilməsinə dair nəticələr müzakirə edilib.

Ali Məhkəmənin sədri Ramiz Rzayev iclası açaraq bildirib ki, insan hüquqlarının, o cümlədən cinayət məsuliyyətinə cəlb olunan və məhkum edilən şəxslərin hüquqlarının daha etibarlı təmini üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 2017-ci il 10 fevral tarixli Sərəncamında ibtidai istintaq və məhkəmə icraatı zamanı böyük ictimai təhlükə törətməyən və az ağır, o cümlədən iqtisadi fəaliyyət sahəsində cinayətlərə görə həbs qətimkan tədbirinin geniş tətbiqi qeyd edilib. Eyni zamanda, ibtidai istintaq orqanları və məhkəmələr tərəfindən prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi zamanı cinayət-prosessual qanunvericiliyinin tələblərinə ciddi əməl olunması, cəzanın və qətimkan tədbirinin məqsədlərinə şəxsi cəmiyyətdən təcrid etmədən nail olmaq üçün azadlıqdan məhrum etməklə əlaqədar olmayan cəzaların və qətimkan tədbirlərinin tətbiqinin genişləndirilməsi tövsiyə olunub.

Azərbaycan Respublikasının Ali Məhkəməsi Plenumunun "Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasının müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında" 2006-cı il 30 mart tarixli 5 saylı, "Təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı təqdimatlara baxılarkən məhkəmələr tərəfindən qanunvericiliyin tətbiqi təcrübəsi haqqında" 2009-cu il 3 noyabr tarixli 2 saylı qərarlarında, "2015-ci ildə respublikanın birinci instansiya məhkəmələrində təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi və həbsdə saxlama müddətlərinin uzadılmasına dair təqdimatlara və həbs qətimkan tədbirinin alternativ qətimkan tədbirləri ilə əvəz edilməsinə dair vəsatətlərə baxılarkən qanunvericiliyin tətbiqi təcrübəsinin ümumiləşdirilməsinə dair" 2017-ci il 7 aprel tarixli və "Respublikanın birinci instansiya məhkəmələri tərəfindən 2017-ci ilin ikinci yarımilliyində təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi və həbsdə saxlama müddətlərinin uzadılması barədə təqdimatlara baxılarkən qanunvericiliyin tətbiqi təcrübəsinə dair" 2018-ci il 25 may tarixli plenumlarında məhkəmələrə tövsiyə olunub ki, şəxsin məhkəməyə gəlməyə təminatları mövcud olduğu təqdirdə onun azadlıqda qalmasına üstünlük verilməli, həbs qətimkan tədbirinə müstəsna tədbir kimi baxılmalıdır. Məhkəmələr həbs qətimkan tədbiri seçərkən yalnız qanunda nəzərdə tutulan əsasları formal sadalamaqla kifayətlənməməli, hər bir əsasın konkret təqsirləndirilən şəxsə münasibətdə mövcudluğunun nədən ibarət olmasını və cinayət işinin materialları ilə onların təsdiq edilib-edilməməsini yoxlamalıdırlar.

Plenumun iclasında apellyasiya və birinci instansiya məhkəmələrinin sədrlərinin və hakimlərinin iştirakı ilə Ali Məhkəmə tərəfindən aparılmış ümumiləşdirmənin nəticələri geniş müzakirə olunub, təhlillər aparılıb. Müəyyənləşdirilib ki, məhkəmələr tərəfindən həbs qətimkan tədbirinin seçilməsi, həbsdə saxlama müddətlərinin uzadılması barədə təqdimatlara və həbsin alternativ qətimkan tədbirləri ilə əvəz edilməsi haqqında vəsatətlərə əsasən qanunvericiliyin tələblərinə uyğun olaraq baxılır. Qeyd edilib ki, 2016-cı ilin birinci yarımilliyinə nisbətən 2018-ci ilin müvafiq dövründə məhkəmələrə təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi və həbsdə saxlama müddətlərinin uzadılması haqqında 3758 təqdimat az daxil olub. Baxılmış 4518 təqdimatın isə 89,1 faizi təmin edilib.

Eyni zamanda, məhkəmə təcrübəsində müəyyən nöqsanlara yol verilməsi halları da aşkar olunub.

İclasda məhkəmələr tərəfindən qanunvericiliyin tətbiqində yol verilən səhvlərin aradan qaldırılması, qanunun eyni qaydada tətbiqinin təmin edilməsi, vahid məhkəmə təcrübəsinin yaradılması məqsədilə məhkəmələrə icmal məktubunun göndərilməsi qərara alınıb.

Plenumun iclasında, həmçinin Azərbaycan Respublikası Ali Məhkəməsinin 2019-cu ilin birinci yarısına dair iş planı təsdiq edilib.

**AZƏRTAC**

# Azərbaycan-İndoneziya əlaqələri müzakirə olunub

**Xarici işlər nazirinin müavini Ramiz Həsənov İndoneziya Respublikasının Xarici İşlər Nazirliyinin Siyasət, Təhlil və İnkişaf Agentliyinin (PADA) baş direktoru Sisvo Pramononun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Xarici İşlə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir müavini R.Həsənov Azərbaycan və İndoneziya arasında siyasi münasibətlərin cari vəziyyətindən məmnunluğunu ifadə edib. Nazir müavini SOCAR-ın İndoneziyadakı fəaliyyətini yüksək qiymətləndirib, iki ölkənin mövcud potensialını nəzərə alaraq, iqtisadi sahədə əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsinin zəruriliyini vurğulayıb. Bu xüsusda, nazir müavini R.Həsənov müqavilə-hüquq bazasının genişləndirilməsinin vacibliyini diqqətə çatdırıb.

Öz növbəsində, indoneziyalı diplomat iki ölkə arasında siyasi sahədə mövcud olan münasibətlərdən razılığını ifadə edərək, ikitərəfli əlaqələrin bütün sahələrdə inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu qeyd edib.

Baş direktor İndoneziyanın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünü hər zaman dəstəklədiyini və Ermənistan-Azərbaycan münaqişəsinin məhz bu əsasda həll olunmasının vacibliyini vurğulayıb.

Görüş zamanı, həmçinin Azərbaycan və İndoneziya arasında mədəniyyət, təhsil, ticarət, iqtisadiyyat və turizm sahələrində əlaqələrin inkişaf etdirilməsi ətrafında müzakirələr aparıldı.

Səfər çərçivəsində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində Azərbaycan-İndoneziya siyasi planlaşdırma dialoqu keçirilib. Dialoq zamanı Azərbaycan və İndoneziyanın xarici siyasət prioritetləri, iki ölkə arasında əməkdaşlıq münasibətləri, o cümlədən siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrin inkişafına dair fikir mübadiləsi aparılıb, həmçinin siyasi planlaşdırma və iqtisadi əməkdaşlıq imkanlarının genişləndirilməsi nəzərdən keçirilib.

**AZƏRTAC**

# İdarəetmədə sistemli islahatlar: struktur yeniliklərində növbəti mərhələ

**(əvvəli 1-ci səhifədə)**

Həmin bağlılıqda dövlət başçısının ifadə etdiyi aşağıdakı fikirlər çox önəmlidir. İlham Əliyev fikirlərinə davam edərək vurğulayıb: "İndi dünyada əks proses gedir - idarəetmə daha yığcam, çevik, daha da məqsədyönlü və az işçi ilə böyük iş görmək üçün. Amma bizdə idarəetmə sistemi şişir. Buna son qoyulmalıdır. Ona görə struktur islahatı, kadr islahatı aparılmalıdır. Hər bir sahədə o sahəyə rəhbərlik edən şəxslər mütləq maksimum səmərə ilə işləməlidirlər (bax: əvvəlki mənbəyə).

Ölkə rəhbəri konkret ifadə edir ki, Azərbaycanda idarəetmə dünyanın inkişaf etmiş hissəsində müşahidə edilən idarəetmə özəlliklərini mütləq nəzərə almalıdır. Azərbaycan demokratik və sivil idarəetməni əsas xətt kimi seçib və bu kontekstdə digər aparıcı dövlətlərlə təcrübə mübadiləsinə tam açıqdır. Bir sıra ölkələr Azərbaycanda yeni yaradılan və demokratiya baxımından səmərəli olan idarəetmə strukturlarını mənimsəyirlər. Məsələn, "ASAN" xidmət Azərbaycanın brendi hesab olunur.

### Beynəlxalq təcrübə və Azərbaycan: qarşılıqlı əlaqələrdən optimal tarazlığa

Bununla yanaşı, Azərbaycan da bütövlükdə dünya dövlətlərində idarəetmə sahəsində özünü göstərən özəl prosesləri diqqətlə izləyir və müasir dövrün tələblərinə uyğun strukturlar yaratmaqdan çəkinmir. Bu aspektdə Azərbaycanda müstəqil dövlətçiliyi daha sürətlə inkişaf etdirmək üçün zamanında vitse-prezidentlik institutunun yaradılması ayrıca vurğulana bilər.

Dövlət başçısının yuxarıda vurğulanan fikirləri bir daha göstərir ki, Bakı idarəetmədə islahatlar prosesini daim inkişaf etdirməkdə qərarlıdır. Artıq Prezident Azərbaycanda dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərman imzalayıb (bax: Prezident Azərbaycanda dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərman imzalayıb / AZƏRTAC, 14 yanvar 2019). Ekspertlərin fikrinə görə, Fərmanın imzalanmasında məqsəd Azərbaycanda dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsi, dövlət orqanlarının və qurumlarının fəaliyyətinin optimallaşdırılması və dövlət büdcəsi vəsaitindən səmərəli istifadənin təmin edilməsidir.

Yəni Azərbaycanın dövlət başçısı çevik surətdə struktur islahatlarını inkişaf etdirir. Fəaliyyəti dayandırılan strukturlar doğrudan da öz üzərlərinə düşən vəzifəni müasir tələblər səviyyəsində yerinə yetirə bilmirdilər. Bir qismi də dövlət büdcəsindən maliyyə alır, ancaq onu səmərəli istifadə edə bilmirdi. Başqa məqamlar da mövcud idi. Bütün bunları nəzərə alaraq, Prezident İlham Əliyev öz qəti qərarını verib. Nəticədə, ekspertlərin də vurğuladığı kimi, Azərbaycan dövlət olaraq bir sıra istiqamətlərdə daha səmərəli fəaliyyət göstərmək şansı əldə etdi. Mütəxəssislər vurğulayırlar ki, əslində, indi aparılan struktur islahatları 2015-ci ildən bəri həyata keçirilən dərin hüquqi və institusional islahatların davamıdır.

Azərbaycan dinamik və hərtərəfli inkişaf edən ölkə kimi daha çevik struktura malik optimal idarəetmə tələb edir. Burada strateji uğurların davamlılığını təmin etmək üçün daha səmərəli şərtlər formalaşdırmaq ciddi əhəmiyyət kəsb edir. Təbii ki, bu zaman paralel strukturlar, səmərəliliyi lazımi səviyyədə olmayan qurumlar və kifayət qədər çevik fəaliyyət mexanizminə malik olmayan təşkilatlar idarəetmə vahidi kimi əvəzlənməlidir. Həmin işlərin reallaşması üçün isə sistemli islahatlar aparılmalıdır. Prezidentin imzaladığı Fərman bu kontekstdə olduqca əhəmiyyətli sənəd olmaqla Azərbaycanda milli dövlət quruculuğu kursunun bütün prinsiplərinə tam uyğundur.

Bu prosesin ölkənin beynəlxalq aləmdə də öz mövqeyini möhkəmləndirməsində əhəmiyyətli rol oynayacağı şübhə doğurmur. Azərbaycan dünya reytinq cədvəllərindən rəqabət qabiliyyəti dinamik yüksələn dövlət kimi qəbul edilir. Həmin aspektdə də prosesin davam etməsi üçün dövlət başçısının Fərmanda göstərdiyi məqamlara ciddi diqqət yetirilməsi gərəkdir. Orada ləğv edilən strukturlarla yanaşı, bir sıra qurumların daha səmərəli fəaliyyət göstərməsi zərurəti də qeyd olunub.

Başqa tərəfdən, Prezidentin bu Fərmanı bütövlükdə idarəetmə sisteminə daxil olan idarəetmə vahidləri üçün bir çağırış və ya nümunədir. Yəni idarəetməyə məsul olan hər bir institusional vahid dövlətçiliyin bundan sonrakı inkişafı üçün daha səmərəli, çevik və demokratik prinsiplərə tam uyğun olaraq çalışmalıdır.

Şübhə yoxdur ki, həyata keçirilən islahatlar kursu dayanmadan davam etdiriləcək. Prezident İlham Əliyev verdiyi vədlərin hər birinə əməl edib və edir. Açıq görünür ki, Azərbaycanda müstəqil dövlətçilik daim inkişafdadır. İslahatlar, yeniləşmələr öz müsbət bəhrəsini verir. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyası müasir şəraitin tələblərinə uyğun daha da inkişaf etdirilir. Prezident İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasət bunun əyani təsdiqidir. Bu baxımdan imzalanan Fərman da dövlətin idarə edilməsi prosesində yeni bir müsbət hadisədir.

**Newtimes.az**

# Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir

***Dövlət başçısı cənab İlham Əliyev bildirib ki, dünyada və bölgədə gedən proseslərdən asılı olmayaraq Azərbaycan öz müstəqil yolu ilə, inkişaf yolu ilə uğurla gedir və gedəcək***

**(əvvəli 1-ci səhifədə)**

Sosialyönlü siyasətin digər vacib istiqamətləri kimi qaçqın və məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi və yaşayış şəraitinin yaxşılaşdırılması üçün 2018-ci ilin icmal və dövlət büdcələrindən üst-üstə 436 milyon manat, sosial mənzillərin tikintisi və güzəştli ipoteka proqramının davamı üçün müvafiq olaraq 100 və 50 milyon manat vəsait ayrılıb. Eyni zamanda Qarabağ müharibəsi əlilləri və şəhid ailələri 626 mənzillə təmin edilib. Orduda uzun müddət qüsursuz xidmət etmiş hərbi qulluqçuların mülkiyyətinə ötən il 394 mənzil verilərək, ümumilikdə hərbi qulluqçulara verilmiş mənzillərin sayı 1284-ə çatdırılıb. Bütün bu məsələlərə xüsusi diqqət ayıran cənab İlham Əliyev bildirib ki, 2019-cu ildə də bu proses davam edəcək.

Sahibkarlığa dövlət dəstəyinin davamlı olduğunu ötən il ərzində kənd təsərrüfatı sahəsində çalışanlara 370 milyon manat məbləğində subsidiya və güzəştlər verilməsi də təsdiq edir. Sahibkarlığın İnkişafı Fondunun xətti ilə 999 sahibkara 160 milyon manat məbləğində güzəştli şərtlərlə kreditlər ayrılıb. İpoteka və Kredit Zəmanəti Fondu isə ölkə bankları tərəfindən kreditləşdirilən 277 milyon manat məbləğində ipoteka kreditlərini yenidən maliyyələşdirib və 17 milyon manat məbləğində kreditlərlə bağlı zəmanət dəstəyi göstərib.

2018-ci ildə ölkənin qeyri-neft məhsullarının ixracının təşviqi və stimullaşdırılması proqramı çərçivəsində sahibkarlara dövlət büdcəsindən 15 milyon manat məbləğində ixrac təşviqləri ödənilib.

Bu gün Azərbaycanda iqtisadi inkişafın aparıcı qüvvəsi olan sahibkarlığa dövlət dəstəyinin verilməsi dövlət başçısı cənab İlham Əliyevin müəyyən etdiyi iqtisadi inkişaf konsepsiyasının prioritetlərindən biridir. Son illərdə bu istiqamətdə dövlət tərəfindən görülən məqsədyönlü tədbirlər Dünya Bankının "Doing Business 2019" təhlilində öz əksini tapıb. Azərbaycan ümumi reytinqdə yeni rekorda imza ataraq dünyada 10 ən islahatçı dövlət siyahısına daxil olub. Bu, ölkəmizdə əlverişli investisiya mühitinin cəlbediciliyinin mühüm göstəricisi olmaqla, özəl, xarici və daxili sərmayələrin iqtisadiyyata, xüsusən onun qeyri-neft sahələrinə axını üçün əlavə güclü təkan verir.

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**

# Azərbaycanın və Türkiyənin Daxili İşlər nazirlikləri arasında əməkdaşlıq sürətlə inkişaf edir

**Yanvarın 18-də daxili işlər nazirinin birinci müavini, polis general-leytenantı Vilayət Eyvazov ölkəmizdə səfərdə olan Türkiyə Respublikası daxili işlər nazirinin müavini İsmail Çataklının başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, daxili işlər naziri, general-polkovnik Ramil Usubovun salamlarını qonaqlara çatdıran V.Eyvazov DİN-in funksional vəzifələri və fəaliyyət istiqamətləri, həyata keçirilən fəal hüquq-mühafizə siyasəti, cinayətkarlığa qarşı aparılan qətiyyətli mübarizənin vəziyyəti, mövcud kriminogen durum barədə ətraflı məlumat verib. Qeyd olunub ki, əməliyyat şəraitinin tam nəzarətə götürülməsi ilk növbədə vətəndaşlarımızın, həmçinin əcnəbilərin, xarici investorların, o cümlədən türk iş adamlarının ölkəmizin iqtisadiyyatına sərmayə qoymalarına, respublikamızda təhlükəsiz, əmin-amanlıq şəraitində yaşayıb fəaliyyət göstərmələrinə əlverişli şərait yaradıb.

Polis general-leytenantı Vilayət Eyvazov İsmail Çataklının Azərbaycana ilk rəsmi səfərinin iki ölkənin Daxili İşlər nazirlikləri arasındakı əməkdaşlığın qarşılıqlı faydalı münasibətlərin inkişafına müsbət təsir göstərəcəyinə əminliyini bildirib.

Səmimi görüşə və ətraflı məlumata görə minnətdarlığını bildirən Türkiyənin daxili işlər nazirinin müavini respublikamıza ilk səfərindən, ölkəmizin sürətli inkişafından, sabitlikdən, əmin-amanlıqdan, Bakının dünyanın ən gözəl paytaxtlarından, ən təhlükəsiz şəhərlərindən biri olmasından məmnunluğunu diqqətə çatdırıb, qarşılıqlı faydalı əməkdaşlığın daha da genişlənməsinə bundan sonra da səy göstərəcəyini ifadə edib.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər də müzakirə olunub.

Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral da görüşdə iştirak edib.

**AZƏRTAC**

## XİN:

# Azərbaycanla ultimativ tərzdə danışmaq qəbuledilməzdir

**Azərbaycan Respublikası Xarici işlər Nazirliyinin mətbuat xidməti Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin bəzi Rusiya vətəndaşlarının Azərbaycana buraxılmaması ilə bağlı məlumatına dair açıqlama yayıb.**

AZƏRTAC xəbər verir ki, açıqlamada deyilir: "Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin bəzi Rusiya vətəndaşlarının Azərbaycana buraxılmamasına dair 2019-cu il 18 yanvar tarixli mətbuat üçün məlumatı ilə tanış olduq və buna cavab olaraq aşağıdakıları bildiririk:

Azərbaycan və Rusiya bərabərhüquqlu suveren dövlətlərdir, Azərbaycanla ultimativ tərzdə danışmaq qəbuledilməzdir və diplomatik etik qaydalara tamamilə ziddir. Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidməti tərəfindən məsələ ilə əlaqədar verilən şərhlərin tərzi Rusiya Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin verdiyi açıqlamaya tam adekvat idi. Bir daha bildiririk ki, yalnız 2018-ci il ərzində 880.000 nəfərdən artıq Rusiya vətəndaşı Azərbaycan Respublikasına səfər edib və onların mütləq əksəriyyəti bu səfərdən razı qalıb, göstərilən qonaqpərvərliyə görə təşəkkürlərini ifadə ediblər. Rusiya Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin bu məsələ ilə bağlı anlaşılmaz inadkarlığı başa düşülən deyil, Azərbaycan-Rusiya strateji əlaqələrinin mahiyyətinə ziddir. Həmçinin Azərbaycan və Rusiya prezidentlərinin iki ölkə arasında əlaqələrin inkişafı üçün nümayiş etdirdiyi iradə və gördükləri işlərlə heç bir halda uzlaşmır. Bir daha bildiririk ki, Rusiya XİN-in mətbuat xidməti tərəfindən atılacaq addımlara mütənasib olaraq Azərbaycan tərəfindən də adekvat tədbirlərin görülməsi müəyyən ediləcək".

**AZƏRTAC**

# MİLLİ İQTİSADİYYAT VƏ İQTİSADİYYATIN ƏSAS SEKTORLARI ÜZRƏ STRATEJİ YOL XƏRİTƏLƏRİ

## ƏLDƏ OLUNMUŞ ƏSAS SOSİAL, İQTİSADİ NAİLİYYƏTLƏRİN QISA STATİSTİK TƏHLİLİ VƏ İNFORMASİYA TƏMİNATININ TƏŞKİLİ SAHƏSİNDƏ GÖRÜLMÜŞ ƏSAS İŞLƏR

**Neft gəlirlərinin azalması ilə müşayiət edilən mürəkkəb qlobal siyasi və iqtisadi mühit şəraitində yeni çağırışlara uyğunlaşmaq və xarici mənfi təsirlərin ölkəmizin sosial, iqtisadi həyatına təsirini minimuma endirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş və ötən iki ildə mükəmməl səviyyədə icra edilən milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri Azərbaycanın yeni iqtisadi islahat modeli kimi xarakterizə edilir. Yol xəritələrinin icrası, habelə iqtisadi sferada müxtəlif fəaliyyət istiqamətləri üzrə qəbul edilən digər strateji planların, o cümlədən Dövlət proqramlarının, inkişaf konsepsiyalarının, strategiyaların, tədbirlər planlarının həmin xəritələrlə uzlaşdırılmasının nəticəsidir ki, qlobal iqtisadi böhranın Azərbaycana təsiri minimuma endirilmiş, ölkəmizin dayanıqlı sosial, iqtisadi inkişafı təmin olunmuş, eyni zamanda iqtisadi potensialı daha da gücləndirilmişdir.**



**Yusif YUSİFOV,**
**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi sədrinin müavini.**

Ölkədə makroiqtisadi sabitliyin qorunması, iqtisadi dinamikliyin təmin edilməsi, insan kapitalının inkişaf etdirilməsi və biznes mühitinin daha da yaxşılaşdırılması ilə bağlı tədbirləri əhatə edən milli iqtisadiyyat perspektivi üzrə strateji yol xəritəsi ilə yanaşı, iqtisadiyyatın 11 sektoru - neft və qaz sənayesi (kimya məhsulları daxil olmaqla), kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı, ağır sənaye və maşınqayırma, ixtisaslaşmış turizm sənayesi, logistika və ticarət, uyğun qiymətə mənzil təminatı, peşə təhsili və təlimi, maliyyə xidmətləri, telekommunikasiya və informasiya texnologiyaları, kommunal xidmətlər (elektrik və istilik enerjisi, su və qaz) üzrə hazırlanmış yol xəritələri üzrə sistemli tədbirlərin həyata keçirilməsi ölkə iqtisadiyyatının inkişafına öz töhfəsini vermişdir. Yol xəritələrinin qəbulundan sonrakı illər ərzində ölkə iqtisadiyyatının vəziyyətini xarakterizə edən statistik göstəricilər onu deməyə əsas verir ki, neft gəlirlərinin düzgün idarə edilməsi hesabına sosial və iqtisadi infrastrukturun qurulması, yüksək yığım və nisbətən kiçik xarici borc, yoxsulluğun azaldılması, özəl sektorun ÜDM-də payının yüksək həddə çatdırılması və biznes mühitinin yaxşılaşdırılması sahəsində Azərbaycanda mühüm uğurlar əldə edilmişdir. Fiskal və monetar siyasətin uzlaşdırılması yolu ilə makroiqtisadi sabitliyə nail olunmuş, iqtisadi diversifikasiya genişləndirilmiş, tarazlaşdırılmış regional inkişafa, qeyri-neft sahələrinin, xüsusilə sahibkarlığın inkişafına dövlət dəstəyi daha da artırılmış, ölkədə daha əlverişli biznes və investisiya mühiti yaradılmışdır.

Milli iqtisadiyyat perspektivi üzrə strateji yol xəritəsində əsas hədəflər yuxarıda qeyd olunduğu kimi, iqtisadi sferada makroiqtisadi sabitliyin qorunması, dinamikliyin təmin edilməsi, insan kapitalının inkişaf etdirilməsi və biznes mühitinin daha da yaxşılaşdırılması ilə bağlı tədbirləri əhatə edir. Bu sahədə son iki il üzrə makroiqtisadi göstəricilərin təhlili göstərir ki, ümumilikdə qarşıya qoyulmuş hədəflərə nail olunmuş və qlobal iqtisadiyyatda gedən proseslər və neft gəlirlərinin azalması kontekstində 2017-ci il makroiqtisadi sabitlik, 2018-ci il isə yeni inkişaf dövrü kimi xarakterizə edilməlidir. Belə ki, 2016-cı ili Ümumi Daxili Məhsul istehsalının 3,1 faizlik azalması ilə başa vuran ölkəmiz 2017-ci ildə 0,1 faizlik, 2018-ci ildə isə 1,4 faizlik artıma nail olmuşdur. Eyni zamanda qeyri-neft sektorunda Ümumi Daxili Məhsul istehsalı 2016-cı ildə 4,5 faiz, qeyri-neft sektoruna yönədilmiş əsas kapitala investisiyalar 30,4 faiz, qeyri-neft məhsullarının ixracı 21,8 faiz azaldığı halda, 2017-ci ildə qeyri-neft sektorunda ümumi Daxili Məhsul istehsalı 2,7 faiz, 2018-ci ildə 1,8 faiz, qeyri-neft sektoruna yönəldilmiş əsas kapitala investisiyalar 2017-ci ildə 17,0 faiz, 2018-ci ildə 22,0 faiz, qeyri-neft məhsullarının ixracı 2017-ci ildə faktiki qiymətlərlə 24,4 faiz, 2018-ci ildə isə 9,8 faiz artmışdır. Qeyd olunanlarla yanaşı, manatın devalvasiyasına baxmayaraq, ölkədə inflyasiya məqbul səviyyədə saxlanılmış və 2017-ci illə müqayisədə qiymət artımı 10,6 faiz bəndi azalaraq 2018-ci ildə 2,3 faizə bərabər olmuşdur. Müsbət tendensiya xarici ticarət dövriyyəsində, əhalinin real gəlirlərində və digər makroiqtisadi göstəricilərdə də müşahidə olunmuşdur. Təsadüfi deyil ki, həyata keçirilən islahatlar Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycanın ümumi reytinqdə yeni rekorda imza atmasına, eləcə də əksər indikatorlar üzrə mövqeyinin daha yüksək səviyyəyə qalxması ilə nəticələnmişdir. Hesabata əsasən Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək ən çox islahat aparan ölkə elan olunmuşdur. Çox sevindirici haldır ki, ölkəmizin mövqeyi 2017-ci illə müqayisədə 2018-ci ildə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşmış, dünyanın bir çox ölkələrini geridə qoymaqla Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlmişdir.

Qeyd etmək lazımdır ki, sözügedən istiqamətdə islahatların vaxtında həyata keçirilməsi üçün mühüm dövlət qərarlarının qəbul edilməsi, onların icra vəziyyətinin qiymətləndirilməsi üçün adekvat informasiya təminatının təşkili zərurəti statistika orqanlarının da üzərinə yeni və daha mürəkkəb vəzifələr qoymuşdur. Vurğulamaq yerinə düşər ki, yaranmış zərurət, habelə BMT-nin Dayanıqlı İnkişaf Sammitində statistika potensialının gücləndirilməsinin üzv dövlətlər tərəfindən öhdəlik kimi qəbul edildiyi nəzərə alınaraq, milli iqtisadiyyat perspektivi üzrə strateji yol xəritəsinə milli statistika infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı tədbir də daxil edilmişdir. Tədbirin əsas məqsədi islahatlara əlavə dəstək vermək üçün yaranan cari imkanlar üzrə daha səmərəli qərarların verilməsi sahəsində statistika infrastrukturunun gücləndirilməsidir. Çünki reallığı əks etdirən faktlara əsaslanan qərarların qəbulu üçün mühüm idarəetmə vasitəsi olan statistika sistemi bazar infrastrukturunu gücləndirmək və sahibkarlıq subyektlərinə daha əlverişli mühit yaratmaq məqsədilə geniş çeşidli məlumatlara malikdir və bu baxımdan, gələcək təşəbbüslərin davamlı olması üçün milli statistika sisteminin zəruri ehtiyatlarla təmin edilməsi və dövlət orqanlarının qarşılıqlı əməkdaşlığı, məlumat sistemlərinin inteqrasiyası mühüm əhəmiyyət kəsb edir.

Ümumilikdə Strateji Yol Xəritəsi çərçivəsində Dövlət Statistika Komitəsi tərəfindən son iki ildə görülmüş işləri 5 istiqamət üzrə qruplaşdırmaq olar:

- rəsmi statistikaya dair metodoloji bazanın inkişaf etdirilməsi;
- statistik alətlər sisteminin təkmilləşdirilməsi;
- statistika sistemində keyfiyyətin idarə edilməsi və metaməlumatlar sistemlərinin inkişaf etdirilməsi;
- statistik istehsal prosesində informasiya texnologiyalarının və innovasiyaların tətbiqinin genişləndirilməsi;
- dövlət statistika orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi və kadr potensialının gücləndirilməsi.

Qeyd olunanlarla əlaqədar milli və beynəlxalq səviyyədə yaranmış yeni ehtiyaclara və beynəlxalq standartların tələblərinə uyğun olaraq rəsmi statistikada istifadə olunan metodoloji materialların BMT, Avrostat, BVF, İƏİT, BƏT və digər beynəlxalq təşkilatların metodologiyalarına uyğunlaşdırılması istiqamətində 2017-2018-ci illərdə kompleks tədbirlər həyata keçirilmiş, yeni metodologiyalar hazırlanmış və tətbiq edilmişdir. Bu məqsədlə statistikanın bütün sahələri üzrə son iki ildə 83 metodoloji material hazırlanmışdır ki, onlardan 55-i hesabat formalarının tərtib olunmasına, 28-i isə statistik müayinələrin keçirilməsinə, keyfiyyətin idarə edilməsinə, statistik göstəricilər sisteminin hazırlanmasına və digər məsələlərə aid olmuşdur. Statistika məlumatlarının keyfiyyətinin beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə statistik hesabat formalarının təkmilləşdirilməsi davam etdirilmişdir. Aidiyyəti dövlət qurumlarının rəyi nəzərə alınmaqla 2 yeni rəsmi statistika hesabatı forması təsdiq edilmiş, aktuallığını itirdiyi üçün 1 hesabat forması ləğv edilmiş və 55 hesabat formasına yenidən baxılaraq göstəricilərdə dəyişikliklər edilmişdir. Statistik hesabat formaları ilə yanaşı, ilkin uçot sənədləri, xüsusilə kənd təsərrüfatı statistikasının təşkilində istifadə olunan təsərrüfatbaşına uçot sənədləri təkmilləşdirilmişdir. Təsdiq edilmiş müvafiq texniki normativ-hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktlarının Dövlət Reyestrinə daxil edilməsi təmin edilmişdir.

Beynəlxalq müqayisəliliyin təmin olunması üçün əsas statistik alət hesab edilən milli statistik təsnifatlar sisteminin inkişafı məqsədilə zəruri tədbirlər görülmüşdür. Belə ki, Avropa İttifaqının Statistika Bürosunun "Classification of Product by Activity, Version 2.1" əsasında "Milli məhsul növləri təsnifatı"nın yeni IV variantı, statistik məqsədlər üçün istifadə edilməsi məqsədilə "Cinayətkarlığın Statistik Təsnifatı" hazırlanmış və aidiyyəti qurumlarla razılaşdırılaraq təsdiq edilmişdir. Ölkədə tətbiq edilən statistik təsnifatlara dair metaməlumatların hazırlanması və onların informasiya sistemlərinə daxil edilməsi məqsədi ilə metaməlumatların strukturu və onların elektron informasiya sistemlərinə yazılması üçün proqram təminatı hazırlanaraq istismarına başlanılmışdır.

Dövlət Statistika Komitəsinin aparatında və keyfiyyətin idarə edilməsi sisteminin (KİS) tətbiq edildiyi yerli statistika orqanlarında keyfiyyətin idarə edilməsi üzrə standartların tətbiqi vəziyyətinin yoxlanması məqsədi ilə bu sahədə dünya liderlərindən olan İsveçrənin SGS şirkəti tərəfindən audit yoxlaması aparılmış və onun nəticələrinə əsasən Dövlət Statistika Komitəsi MDB milli statistika qurumları arasında ilk olaraq "Rəsmi statistika məlumatlarının istehsalı və yayılması" sahəsində İSO 9001:2015 beynəlxalq uyğunluq sertifikatına layiq görülmüşdür.

2017-2018-ci illərdə Komitə tərəfindən "Daxili auditlər" sənədləşdirilmiş proseduru, "Keyfiyyəti İdarəetmə Sistemi və sənədləşdirilmiş prosedurlar" və "İSO 9001:2015 Keyfiyyəti İdarəetmə Sistemi" mövzularında seminarlar keçirilmişdir. KİS-in tətbiq dairəsinin genişləndirilməsi istiqamətində müvafiq işlər görülmüş və 2017-ci ildə Şirvan şəhər, Goranboy, Oğuz, Qəbələ, Hacıqabul, Tərtər və Füzuli rayon statistika idarələrində, 2018-ci ildə isə Abşeron, Quba, Qusar, Qobustan, Göyçay, Göygöl, Ucar, Siyəzən, Şamaxı və Şabran rayon statistika idarələrində işlərin nomenklatur-siyahılarının, keyfiyyət sahəsində siyasət və məqsədlərinin hazırlanması təmin edilmişdir. Bundan başqa, "Uyğunsuzluqların və təshihedici tədbirlərin idarə edilməsi", "İstifadəçilərlə əks-əlaqələrin idarə edilməsi", "Risklərin və imkanların idarə edilməsi", "Daxili auditlər", "Rəhbərlik tərəfindən təhlil" sənədləşdirilmiş prosedurları, "Risklərin təhlili və qiymətləndirilməsi" sənədinin, həmçinin proseslərin idarə olunması standartlarının və proseslərin xəritələrini və "Keyfiyyət üzrə vəsait"i hazırlanaraq təsdiq edilmişdir. Eyni zamanda hər il üçün "Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Keyfiyyət sahəsində məqsədləri" hazırlanmışdır. Bundan başqa, "Statistik proses iştirakçılarının fəaliyyətlərinin protokollaşdırılması və elektron informasiya sistemlərinə inteqrasiyasının metodoloji əsasları" sənədi hazırlanmışdır. "Statistik Biznes-Prosesin Ümumi Modeli"nin IV redaksiyası, "Statistik Biznes-Prosesin Ümumi Modeli"nin dördüncü redaksiyası əsasında sahə şöbələri üçün proseslərin idarə olunması standartları və prosesin xəritəsi hazırlanaraq Dövlət Statistika Komitəsinin müvafiq sərəncamları ilə təsdiq edilmişdir. Tərtib edilmiş "Audit proqramı"na uyğun olaraq, Komitə aparatının bütün struktur bölmələrində və KİS-in tətbiq edildiyi yerli statistika orqanında daxili auditlər, eləcə də yoxlama və nəzarət auditləri aparılaraq nəticələri sənədləşdirilmiş, daxili auditlər zamanı müəyyən olunmuş uyğunsuzluqların aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsi təmin edilmişdir.

Statistik istehsal prosesində İKT və statistik innovasiyaların tətbiqinin genişləndirilməsi məqsədilə mühüm işlər görülmüş, respondentlərin yerli statistika orqanlarına gəlmədən hesabat məlumatlarını elektron formada təqdim etmələri üçün zəruri tədbirlər həyata keçirilmiş və nəticədə rəsmi statistika hesabatlarının onlayn rejimdə elektron formada qəbulu 95,0 faizi ötmüş, statistik hesabatları elektron formada internet vasitəsilə təqdim etmək üçün 2018-ci il ərzində 3,1 milyon müraciət daxil olmuş, bununla da vətəndaş-məmur təmaslarının səviyyəsi minimuma endirilmiş, eyni zamanda statistik məlumatların işlənməsi və təhlili imkanları da yüksəlmişdir. Komitənin rəsmi internet səhifəsi istifadəçilərin maraqlarının təmin edilməsi baxımından müntəzəm olaraq təkmilləşdirilmiş və yenilənmiş, məlumat bazaları əsas sosial-iqtisadi göstəricilər üzrə 15 minə yaxın cədvəli, təhlil və metodoloji materialları əhatə etmişdir. 2018-ci ildə internet səhifəsindən 93,6 faizi ölkə ərazisindən, 6,4 faizi isə xarici ölkələrdən olmaqla hər gün orta hesabla 9,1 mindən çox istifadəçi bəhrələnmişdir.

Dövlət Statistika Komitəsi tərəfindən göstərilən elektron xidmətlərin təşkili sahəsində də müvafiq işlər aparılaraq elektron xidmətlərdən istifadə qaydaları barədə təlimatların, elektron xidmətlər üzrə bildirişlərin avtomatik rejimdə sorğu edən şəxslərə göndərilməsi tam təmin edilmişdir. Bununla yanaşı, bütün elektron xidmətlərin mobil versiyaları hazırlanaraq Komitənin internet səhifəsinin mobil variantında yerləşdirilmiş və "Elektron hökumət" portalına inteqrasiya olunmaqla tam fəaliyyət göstərmişdir. Dövlət Statistika Komitəsi tərəfindən göstərilən elektron xidmətlərin "Elektron hökumət" portalı vasitəsilə təqdimatına dair vətəndaşlar arasında ictimai maarifləndirmə tədbirlərinin həyata keçirilməsi məqsədi ilə Komitənin internet səhifəsinin "E-xidmətlər" bölməsində bu xidmətlər haqqında ətraflı məlumatlar yerləşdirilmiş, "Facebook" sosial şəbəkəsində Dövlət Statistika Komitəsinin səhifəsinin aktiv fəaliyyəti təmin edilmiş və "Youtube"da Komitənin səhifəsi yaradılmışdır. Dövlət Statistika Komitəsi və Koreya Statistika Komitəsi tərəfindən "Azərbaycan Respublikasında Statistik Potensialın Gücləndirilməsi" layihəsi çərçivəsində "Azərbaycanın Statistik İnformasiya Xidməti - ASİS" statistik məlumatların yayım sistemi hazırlanaraq istifadəçilərin ixtiyarına verilmişdir. ASİS-in əsas üstünlüyü onun istifadəçiyönümlü olmasıdır və hər bir istifadəçi bu imkandan yararlanmaqla məlumat bazasında yerləşdirilmiş rəsmi statistika məlumatları əsasında öz istəyinə uyğun real vaxt rejimində cədvəllər, dinamika sıraları tərtib edə, məlumatları qrafiklər vasitəsilə vizuallaşdıra, çap edə və yadda saxlaya bilər. ASİS sadə strukturda və məlumatların yayımı sahəsində beynəlxalq səviyyədə tətbiq olunan standartlara uyğun üslubda hazırlanmışdır ki, bu da rəsmi statistika məlumatlarından ölkə istifadəçiləri ilə yanaşı, xarici ölkə vətəndaşlarının və beynəlxalq təşkilatların daha rahat istifadəsinə imkan verir.

Dövlət statistika orqanlarının maddi-texniki bazasının möhkəmləndirilməsi və kadr potensialının gücləndirilməsi istiqamətində zəruri tədbirlər görülmüş, kompüter texnikası, serverlərin təhlükəsiz və davamlı işini təmin edən avadanlıqlar, antivirus proqram lisenziyaları alınaraq quraşdırılmışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə 2018-ci ilin mart ayının 7-də Bakı Şəhər Statistika İdarəsinin açılışı olmuşdur. Qeyd etmək lazımdır ki, müasir üslubda inşa edilmiş yeni inzibati binanın istifadəyə verilməsi ilə Bakı Şəhər Statistika İdarəsinin icarə əsasında müxtəlif ünvanlarda müasir tələblərə cavab verməyən binalarda yerləşən rayon şöbələrinin vahid təşkilati-struktur formasında fəaliyyət göstərməsinə və əməkdaşların iş şəraitinin əsaslı surətdə yaxşılaşdırılmasına imkan yaradılmışdır.

Qabaqcıl təcrübələrdən faydalanmaqla milli statistika potensialının gücləndirilməsi, işçi heyətinin bilik və bacarıqlarının artırılması məqsədilə Dövlət Statistika Komitəsinin gənc əməkdaşları Bolqarıstan Respublikası Milli Statistika İnstitutunun "Slivek" Təlim və İxtisasartırma Mərkəzində və Milli və Dünya İqtisadiyyatı Universitetinin Təlim Mərkəzində təlimdə, Ukrayna Dövlət Statistika Xidmətinin Statistika, Uçot və Audit Milli Akademiyasında ixtisasartırma kursunda və Türkiyə Statistika İnstitutunda təlimdə iştirak etmişlər. Bununla yanaşı, 9 əməkdaş İSO 9001:2015 "Keyfiyyəti idarəetmə sistemləri - Tələblər" beynəlxalq standartı, 10 əməkdaş isə "Daxili audit" istiqaməti üzrə "SGS Azeri LTD" MMC tərəfindən Dövlət Statistika Komitəsində təşkil olunmuş təlimlərdə iştirak etmiş və müvafiq sertifikatlarla təltif edilmişdir. Ümumilikdə 2017-ci ildə Dövlət Statistika Komitəsinin 69, 2018-ci ildə isə 82 əməkdaşı müxtəlif beynəlxalq təşkilatlar tərəfindən təşkil edilmiş 156 tədbirdə iştirak etmiş, həmçinin Komitənin mütəxəssisləri beynəlxalq ekspert və işçi qruplarının tərkibində fəaliyyətlərini davam etdirmişlər. Eyni zamanda İslam ölkələri üçün Statistik, İqtisadi və Sosial Tədqiqat və Treninq Mərkəzi tərəfindən Tacikistan Respublikasının Statistika Agentliyində dayanıqlı inkişaf və qiymət statistikasına dair təşkil edilmiş seminarlarda Komitənin əməkdaşları ekspert qismində iştirak etmişlər. Tacikistan Respublikasının Prezidenti yanında Statistika Agentliyinin 4 əməkdaşı üçün biznes reyestrin yenilənməsi, keyfiyyətin idarə edilməsi sisteminə dair Bakı şəhərində təlim kursu təşkil edilmişdir.

Qeyd etmək lazımdır ki, milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində qarşıya qoyulmuş vəzifələrlə yanaşı, sektorlar üzrə strateji yol xəritələrində də həm statistika orqanlarının, həm də digər dövlət qurumlarının üzərinə mühüm vəzifələr qoyulmuşdur. Yol xəritələrinin əhatə etdiyi sektorlar üzrə rəsmi statistika məlumatlarının təhlili göstərir ki, makroiqtisadi səviyyədə olduğu kimi, sektorlar üzrə də nəzərdə tutulmuş tədbirlərin icrası ayrı-ayrı sahələrin inkişafına mühüm təkan vermişdir. Belə ki *Azərbaycan Respublikasının neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi* çərçivəsində görülmüş tədbirlər hesabına ölkə iqtisadiyyatının mühüm sahələrindən olan kimya sənayesində 2016-cı ildə müşahidə olunmuş 11,2 faizlik azalma 2017-ci ildə 16,5 faizlik artımla əvəz olunmuşdur. Bununla yanaşı, 2017-ci ilin sentyabrın 14-də dünyanın aparıcı neft şirkətləri ilə Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yeni Saziş imzalanmışdır ki, bununla da ölkəmizdə yeni neft strategiyasının icrasına başlanılmışdır.

Ölkədə kənd təsərrüfatı sektorunda rəqabət üstünlüyü olan kənd təsərrüfatı məhsullarının regional və sahəvi inkişafı, yerli və xarici bazarlara çıxışının asanlaşdırılması, fermer tərəfdaşlığının formalaşdırılması, aqrobiznesin və kənd təsərrüfatı məhsulları emalının inkişafı, aqrar sahədə elm və təhsilin keyfiyyətinin yüksəldilməsi yolu ilə rəqabətqabiliyyətli kənd təsərrüfatı sektorunun formalaşdırılması prosesləri uğurla davam etmişdir. Təbii resurslardan səmərəli istifadə olunması, təsərrüfat subyektlərinin fəaliyyətinin gücləndirilməsi, kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı sahələrinin dəyər zənciri üzrə inkişaf etdirilməsi üçün şərait yaradılmış, bununla da ölkədə ərzaq təhlükəsizliyinin dayanıqlılığı təmin olunmuş, qeyri-neft sektoru üzrə ixrac həcminin artımına nail olunaraq kənd təsərrüfatı sahəsində çalışanların gəlir əldəetmə imkanları yaxşılaşmışdır. Qeyd olunanlara nail olmaq üçün *Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi* çərçivəsində görülmüş işlər mühüm nəticələr vermişdir. Bunun nəticəsidir ki, ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafında, eləcə də əhalinin məşğulluğunun artırılmasında mühüm rol oynayan aqrar sahə ilə bağlı ardıcıl qərarların qəbul edilməsi, Dövlət proqramlarının həyata keçirilməsi, kənd təsərrüfatı istehsalçıları üçün vergi güzəştlərinin tətbiq edilməsi, subsidiyaların verilməsi bu sahədə inkişafın sabitliyinə müsbət təsir göstərmişdir. Əgər 2016-cı ildə kənd təsərrüfatında məhsul istehsalının artımı cəmi 2,6 faiz təşkil edirdisə, 2017-ci ildə bu göstərici 4,2 faizə, 2018-ci ildə isə 4,6 faizə yüksəlmişdir. 2016-cı illə müqayisədə 2017-ci ildə əksər bitkiçilik məhsullarının istehsalı üzrə daha yaxşı nəticələrin əldə edilməsi bitkiçilik məhsullarının ümumi istehsalının 6,1 faiz artmasına şərait yaratmış, eyni zamanda 2018-ci ildə də 6,8 faizlik artım müşahidə olunmuşdur. Sahibkarlığın, aqrar bölmənin inkişafı üçün dövlət tərəfindən əlverişli mühitin yaradılması, xüsusilə son illərdə müasir istixana komplekslərinin istifadəyə verilməsi, fərdi istixana təsərrüfatlarının fəaliyyətinin dəstəklənməsi, bitkiçilik məhsullarının ixracının stimullaşdırılması bu sahəyə marağı artırmış, istixanaların sayı və onlarda yetişdirilən məhsulun həcmi nəzərəçarpacaq dərəcədə artmış, 2017-ci ildə qeyri-neft ixracında tərəvəzin xüsusi çəkisi 2016-cı ildəki 9,1 faizdən 12,0 faizədək yüksəlmiş və 184,2 milyon ABŞ dolları dəyərində tərəvəz məhsulu 19 ölkəyə göndərilmişdir.

Son iki il ərzində əhalinin heyvandarlıq məhsullarına olan tələbatını daxili istehsal hesabına ödəmək məqsədi ilə mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilmiş, sahibkarlara dövlət vəsaiti hesabına güzəştli şərtlərlə lizinq yolu ilə yüksək məhsuldarlığa malik cins heyvanların satılması davam etdirilmiş, heyvanların süni mayalanma tədbirləri genişləndirilmişdir.

Qeyd etmək lazımdır ki, sözügedən Strateji Yol Xəritəsi üzrə statistik informasiya təminatının yaxşılaşdırılması məqsədilə Dövlət Statistika Komitəsi tərəfindən zəruri tədbirlər görülmüşdür. Belə ki, yol xəritəsinin 8.2.4-cü "İstehsalçıların müqaviləyə əsaslanan kənd təsərrüfatı istehsalında və fermer birliklərində iştirakı ilə bağlı statistik hesabatların hazırlanması" yarımbəndinin icrası olaraq "İstehsalçıların müqaviləyə əsaslanan kənd təsərrüfatı istehsalında və fermer birliklərində iştirakına dair" seçmə statistik müayinə forması və onun doldurulmasına dair göstəriş hazırlanaraq aidiyyəti qurumlarla razılaşdırıldıqdan sonra Dövlət Statistika Komitəsinin sərəncamı ilə təsdiq edilmişdir. 2018-ci ilin oktyabr ayında keçirilmiş müayinə kənd təsərrüfatı istehsalı ilə məşğul olan hüquqi şəxslərin, fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarının müqavilə, yaxud şifahi razılaşma əsasında birgə təsərrüfatçılıqda və ya fermer birliklərində iştirakı, kənd təsərrüfatı məhsullarının istehsalı və satışı səviyyəsinin öyrənilməsi, istehsalçıların kooperasiya meyilləri haqqında statistik məlumatların əldə edilməsinə imkan verir. Eyni zamanda yol xəritəsinin 8.2.5-ci "Həyətyanı sahələrdə yetişdirilən məhsullarla bağlı müayinələrin aparılması və statistik hesabatların hazırlanması" yarımbəndinin icrası olaraq həyətyanı sahələrdə kənd təsərrüfatı məhsulları yetişdirən fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarında statistik müayinənin aparılması üçün statistik müayinə forması və onun doldurulmasına dair göstəriş Kənd Təsərrüfatı Nazirliyi ilə razılaşdırıldıqdan sonra Dövlət Statistika Komitəsinin sərəncamı ilə təsdiq edilmişdir. Ötən ilin sentyabr ayında keçirilmiş statistik müayinə əsasında təsərrüfatların xüsusi mülkiyyətində və (və ya) istifadəsində olan həyətyanı torpaq sahələrində yetişdirilən meyvə, tərəvəz, bostan məhsulları, kartof, yem bitkiləri və digər məhsulların əkin sahəsinə, istehsalına və məhsuldarlığına dair, habelə istehsal edilmiş məhsulun istifadə istiqamətləri haqqında statistik məlumatlar əldə edilmişdir. Bundan başqa, xəritənin 8.2.6-cı "Meyvə bağları üzrə məlumatların ənənəvi, intensiv və superintensiv bağlar olmaqla qruplaşdırılması" yarımbəndinin icrası ilə əlaqədar mövcud aylıq rəsmi statistika hesabatı formasına yeni bölmə əlavə edilmiş, ölkədə ənənəvi, intensiv və superintensiv üsulla salınmış meyvə, giləmeyvə, üzüm və çay bağlarının sahəsi və buradan yığılmış məhsulun həcminə dair məlumatlar toplanmışdır.

*Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsində* qarşıya qoyulmuş əsas hədəf kiçik və orta sahibkarlığın fəaliyyəti üçün biznes mühitinin və tənzimləyici bazanın yaxşılaşdırılması, onların maliyyə resurslarına sərfəli və səmərəli çıxışının təmin edilməsi və s. istiqamətləri əhatə edir. Bu hədəflərə nail olmaq üçün kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi çərçivəsində görülmüş işlər hesabına kiçik və orta sahibkarlığın inkişafı üzrə daha əlverişli biznes mühiti formalaşdırılmış, onun rəqabətqabiliyyətliliyi və iqtisadiyyatdakı, eyni zamanda məşğulluğun təmin edilməsindəki rolu artmış, əsas istehlak mallarının kiçik və orta sahibkarlıq subyektləri tərəfindən istehsalına nail olunması, habelə bu subyektlərin ixrac etdikləri malların ölkənin ümumi ixracındakı payının artırılması ilə bağlı tədbirlər görülmüşdür. Kiçik və orta sahibkarlığın inkişafı iqtisadiyyatın şaxələndirilməsi, rəqabətqabiliyyətliliyinin artırılması, məşğulluğun təmin edilməsi, istehlak mallarına olan tələbatın yerli resurslar hesabına ödənilməsi və iqtisadi inkişafın təmin edilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir və həyata keçirilmiş tədbirlər bu məqsədə xidmət edir.

**(davamı 4-cü səhifədə)**

# MİLLİ İQTİSADİYYAT VƏ İQTİSADİYYATIN ƏSAS SEKTORLARI ÜZRƏ STRATEJİ YOL XƏRİTƏLƏRİ

## ƏLDƏ OLUNMUŞ ƏSAS SOSİAL, İQTİSADİ NAİLİYYƏTLƏRİN QISA STATİSTİK TƏHLİLİ VƏ İNFORMASİYA TƏMİNATININ TƏŞKİLİ SAHƏSİNDƏ GÖRÜLMÜŞ ƏSAS İŞLƏR

**(əvvəli 3-cü səhifədə)**

2017-ci ildə ölkədə kiçik və orta sahibkarlıq subyektləri tərəfindən 6269,7 milyon manatlıq məhsul istehsal olunmuş, ölkə üzrə ümumi məhsul buraxılışında onların xüsusi çəkisi 6,1 faiz olmuşdur. Ümumilikdə, kiçik və orta sahibkarlıq subyektlərinin məhsul buraxılışının 45,4 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 11,5 faizi nəqliyyat və anbar təsərrüfatı, 9,6 faizi sənaye, 13,0 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 6,0 faizi tikinti, 1,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 12,8 faizi digər sahələrdə fəaliyyət göstərən subyektlərin payına düşmüşdür. Kiçik və orta sahibkarlıq subyektlərinin strukturu onların daha çox xidmət sahələrinə üstünlük verdiklərini göstərir.

Regionlarda yeni açılan kiçik və orta müəssisələrin, habelə fərdi sahibkarların sayının artması, muzdlu işçilərin sayına da təsir etmiş və ayrı-ayrı sahələrdə işçilərin sayının artması müşahidə olunmuşdur. 2017-ci ildə kiçik və orta sahibkarlıq subyektlərində 290,1 min nəfər çalışmış və onların sayı əvvəlki illə müqayisədə 3,2 faiz artmışdır. Muzdlu işçilərin 37,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 9,7 faizi sənaye, 7,0 faizi tikinti, 6,5 faizi təhsil, 5,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 4,9 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 3,8 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,1 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,7 faizi informasiya və rabitə, 19,5 faizi isə digər sahələrdə cəmlənmişdir.

Eyni zamanda ölkədə iqtisadi vəziyyətin daha dərindən təhlili, daha etibarlı proqnozların verilməsi, inkişaf planları və proqramlarının tərtibi, kiçik və orta sahibkarlıq subyektlərinə dövlət dəstəyinin ünvanlılığının təmin edilməsi və bu sahədə aparılan islahatların real sektora təsirinin öyrənilməsi üçün etibarlı və geniş əhatəli statistik məlumatlara olan tələbatın ödənilməsi üçün "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi"ndə müəyyən edilmiş Tədbirlər Planında "KOS üzrə statistik məlumatların standartlaşdırılması" işinin icrası ilə bağlı kiçik və orta sahibkarlıqla bağlı statistik məlumatların bölgüsünün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 iyun tarixli 215 nömrəli qərarı ilə təsdiq edilmiş "İri, orta və kiçik sahibkar meyarları"na uyğun aparılması təşkil edilmiş, həmin meyarlar üzrə toplanan illik məlumatlar əsasında "Kiçik və orta sahibkarlıq subyektləri" adlı illik statistik məcmuə hazırlanmış və istifadəçilərə təqdim edilmişdir. Bununla yanaşı, "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 29 dekabr tarixli 963-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 fevral tarixli 1816 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli 556 nömrəli qərarı ilə "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları" təsdiq edilmişdir ki, bu da dövlət statistika orqanlarının üzərinə mikro, kiçik və orta sahibkarlıqla bağlı vəziyyətin təhlili, proqnozların verilməsi, inkişaf planlarının və proqramların hazırlanması, maliyyə resurslarına çıxış imkanlarının qiymətləndirilməsi üçün statistik məlumatların əhatəliliyinin genişləndirilməsi kimi yeni vəzifələr qoyur.

*Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi* çərçivəsində görülmüş işlərin nəticəsidir ki, bu dövrdə ölkə iqtisadiyyatının şaxələndirilməsi üçün bu sahə iqtisadiyyatın əsas sütunlarından birinə çevrilmiş, sənaye strukturunun təkmilləşdirilməsi, ağır sənaye və maşınqayırma sektorunun potensialının genişləndirilməsi davam etdirilmiş, eyni zamanda maşınqayırma məhsullarının idxal payının azaldılması və ixrac edilən məhsulların həcminin artırılması ilə ölkənin tədiyə balansının yaxşılaşdırılması, mövcud sahələrlə yanaşı, yeni və daha yüksək əlavə dəyərli istehsal sahələrinin yaradılması, habelə istehsal olunan məhsulların dəyər zəncirində yerli komponentlərin payının artırılması, yerli və xarici investisiyaların cəlb edilməsi, yeni maliyyələşmə mexanizmlərinin tətbiqi istiqamətlərində mühüm işlər görülmüşdür.

Belə ki, əvvəlki illərdə olduğu kimi, 2017-ci ildə də iqtisadi islahatların davam etdirilməsi ölkə iqtisadiyyatının neft sənayesindən asılılığının azaldılması və inkişafı üçün güclü zəmin yaratmışdır. Nəticədə qeyri-neft sənayesinin ənənəvi sahələrində keyfiyyət dəyişmələri baş vermiş, yerli xammal və materiallardan istifadəyə üstünlük verilməsi bir sıra sənaye məhsulları ilə ölkənin ehtiyaclarının təmin edilməsini xeyli yaxşılaşdırmışdır. Maşın və avadanlıqların, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində 2018-ci ildə 274,9 milyon manatlıq məhsul istehsal edilmişdir.

*Ölkədə turizmin inkişafı üçün Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi* çərçivəsində mühüm işlər görülmüşdür. Nəticədə ölkənin turizm potensialından tam istifadə üzrə səmərəli idarəetmə sisteminin yaradılması, marketinq və brendinq səylərinin gücləndirilməsi, turizm məkanları barədə məlumatlılığın artırılması və turizm infrastrukturunun təkmilləşdirilməsi yolu ilə getdikcə daha çox xarici turistlərin cəlb edilməsinə nail olunmuşdur. Eyni zamanda ölkə üzrə əlverişli mühitin yaradılması üçün ölkəyə giriş-çıxışın sadələşdirilməsi, əlaqə vasitələrinin təkmilləşdirilməsi, turizm sektorunun ayrı-ayrı iştirakçıları arasında koordinasiyalı fəaliyyətin qurulması, turizm və rekreasiya zonalarının yaradılması kimi dəstəkverici mexanizmlərin tətbiqi ilə bu sahədə uzunmüddətli inkişafa nail olmaq qarşıya məqsəd kimi qoyulmuşdur. Müqayisə üçün qeyd etmək lazımdır ki, 2003-cü illə müqayisədə 2017-ci ildə ölkədə fəaliyyət göstərən mehmanxanaların sayı 5,9 dəfə artaraq 563 vahid, onlarda nömrələrin (otaqların) sayı 4,1 dəfə artaraq 20,8 min, birdəfəlik tutum isə 4,3 dəfə artaraq 41,6 min yer olmuşdur. Mehmanxanalarda yerləşdirilmiş turistlərin ümumi sayı 9,6 dəfə, əcnəbi turistlərin sayı isə 12,6 dəfəyədək artmışdır.

Əcnəbilər üçün viza verilməsi prosedurunun sadələşdirilməsi, müasir informasiya texnologiyalarının tətbiqi nəticəsində operativliyi və şəffaflığı təmin edən elektron viza sisteminin yaradılması da ölkədə turizm sektorunun inkişafı üçün əlverişli şərait yaratmış, ölkəyə gələn turistlərin sayının artmasına əsaslı təsir göstərmişdir. Belə ki, 2003-cü illə müqayisədə turizm məqsədilə ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin sayı 4,2 dəfə artaraq 2454,0 min nəfər olmuşdur.

Turizm sənayesinin inkişafına dair strateji yol xəritəsi üzrə statistik uçotun təkmilləşdirilməsi sahəsində Dövlət Statistika Komitəsi tərəfindən də zəruri işlər həyata keçirilmişdir. Belə ki, turizm sektorunda əhatəli statistik təhlillərin aparılması üçün məlumat bazası yeni statistik göstəricilərin əlavə edilməsi və məlumatların toplanması dövriliyinin tezləşdirilməsi əsasında genişləndirilmişdir. Turizm sahəsinə dair mövcud statistika müşahidə formaları və metodoloji göstərişlər təkmilləşdirilmiş, məlumatların toplanma dövriliyi tezləşdirilmişdir. Mehmanxana və mehmanxana tipli müəssisələrin fəaliyyətinə dair hesabat formasının dövriliyi aylıq qəbul edilmiş, aktuallığını itirmiş göstəricilər hesabat formasından çıxarılmış və müasir dövrdə aktual olan göstəricilər daxil edilmişdir, mehmanxananın nömrələrdən istifadə səviyyəsini hesablamaq üçün müvafiq göstərici əlavə edilmişdir. Daxili, gəlmə və xarici (getmə) turizmə dair müayinə formaları təkmilləşdirilməklə yenidən hazırlanmış, turistlər tərəfindən keçirilən gecələmələrin yerləşdirmə vasitələrinin növləri üzrə sayı, səfər müddətində istifadə olunan nəqliyyat növləri, turizm məqsədli xərclərin tərkibi barədə əhatəli məlumatların əldə edilməsi üçün müvafiq dəyişikliklər edilmiş, 2018-ci ildən başlayaraq sorğuların rüblük dövriliklə aparılması həyata keçirilmişdir. Ölkəmizə gələn əcnəbi turistlərin məmnunluq səviyyəsini öyrənmək üçün gəlmə turizmə dair müayinə formasına müvafiq suallar əlavə edilmiş, turizmin ölkə iqtisadiyyatına təsirini sahələr üzrə müşahidə etmək üçün turistlərin xərclərinə dair bəndlərinə əlavələr olunmuşdur.

Turizmin ölkə iqtisadiyyatına təsirinin statistik ölçülməsi və turizmə dair statistik məlumatların beynəlxalq müqayisəliliyinin təmin edilməsi məqsədilə turizmin köməkçi hesablarına dair "Məhsul (xidmət) növləri və ziyarətçi kateqoriyalarına görə gəlmə turizm xərcləri", "Məhsul (xidmət) növləri və ziyarətçi kateqoriyalarına görə daxili turizm xərcləri", "Məhsul (xidmət) növləri və ziyarətçi kateqoriyalarına görə getmə turizm xərcləri" və "Məhsul (xidmət) növləri və ziyarətçi kateqoriyalarına görə ölkədaxili turizm xərcləri", "Turizm və digər sahələrin istehsal hesabları" və "Turizm xarakterli məhsul buraxılışı və ölkədaxili turizm istehlakı" cədvəlləri hazırlanmışdır. Turizm üçün xarakterik olan iqtisadi fəaliyyət növləri və xidmət növlərinin siyahısı təkmilləşdirilməklə yenidən hazırlanmışdır.

*Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsində* qarşıya qoyulmuş əsas hədəf ölkə üzərindən ticarət həcminin artırılması üçün əlverişli mühitin yaradılması, tranzit ticarətindən daha yüksək dəyərin əldə edilməsi, eyni zamanda bu sahədə məqsədlərin gerçəkləşdirilməsi üçün mühüm hərəkətverici mexanizmlərin tətbiqi, beynəlxalq ticarəti gücləndirən tənzimləyici və məsləhətverici qurumların sayının artması, beynəlxalq ticarət fəaliyyəti üzrə qaydaların müəyyən edilməsi, ikitərəfli sazişlər bağlanmasının stimullaşdırılması, qlobal tarif və qeyri-tarif maneələrinin azaldılması, ticarətin maliyyələşdirilməsi sahəsində yeni maliyyələşdirmə alətlərinin hazırlanması və s. istiqamətlərini əhatə edir. Regionda əhəmiyyətli logistika və ticarət qovşağına çevrilmək məqsədilə ölkənin strateji coğrafi mövqeyindən səmərəli istifadə edilməklə tranzit yüklərin ölkə ərazisindən keçən nəqliyyat dəhlizlərinə cəlb olunması, bölgələrdə logistika və ticarət mərkəzlərinin yaradılması ilə ölkənin cəlbediciliyinin artırılması əsas məqsəd kimi qarşıya qoyulmuşdur. Bu sahədə görülmüş ən böyük işlərdən biri ötən il mayın 14-də açılışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də iştirak etdiyi Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin istifadəyə verilməsi olmuşdur. Azərbaycanın regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsi strategiyasının tərkib hissəsi olan, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin qovşağında yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi ölkənin tranzit imkanlarının genişləndirilməsində həlledici rola malikdir. Azərbaycanın Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizləri üzərində yerləşməsi yeni liman üçün zəngin tranzit potensialı yaratmaqla ölkəyə daxil olan, ölkədən çıxan və tranzit yüklərin aşırılmasında strateji nəqliyyat qovşağı funksiyalarını yerinə yetirməyə imkan verərək Xəzər dənizindən səmərəli, sürətli və təhlükəsiz bərə keçidini təmin edir, eyni zamanda bu kompleks Bakı-Tbilisi-Qars dəmir yolu xətti üçün birbaşa yükcəmləyici məntəqə funksiyasını yerinə yetirir. Beləliklə, Şimal, Cənub, Şərq və Qərb istiqamətlərindən dəhlizlər üzrə ölkəyə daxil olan yük axınlarının yeni liman kompleksində cəmlənərək, buradan Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə Avropa istiqamətində və ya gəmilər vasitəsilə Şərq istiqamətində nəqlini təmin edən səmərəli və dayanıqlı logistik zəncirin formalaşdırılması üçün zəmin yaranmışdır. Həyata keçirilmiş fəaliyyətlər xarici ticarət əlaqələrinin genişləndirilməsinə müsbət təsir göstərmişdir. 2018-ci ilin on bir ayında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 182 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 109 ölkəyə məhsul ixrac olunmuş, 173 ölkədən idxal olunmuşdur.

*Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsində* qarşıya qoyulmuş əsas hədəf uyğun qiymətə mənzil təminatının layihələndirilməsi və həyata keçirilməsi üçün Mənzil İnşaatı Dövlət Agentliyinə müəyyən strategiya və hədəflərə əsaslanan səlahiyyətlərin verilməsi, eyni zamanda uyğun qiymətə mənzil bazarının fəaliyyətinə əlverişli şərait yaradan əsas mexanizmlərin həyata keçirilməsi istiqamətlərini əhatə edir. Bu sahədə görülmüş işlərin nəticəsidir ki, Azərbaycan Respublikası vətəndaşlarının yaşayış sahəsinə olan ehtiyacının ödənilməsi, xüsusilə azgəlirli ailələrin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, tikinti sektorunda rəqabət mühitinin gücləndirilməsi, habelə ekoloji cəhətdən təmiz və enerji səmərəliliyi tələblərinə cavab verən çoxmənzilli yaşayış massivlərinin tikilməsi, şəhərsalma və tikinti sahəsində dövlət idarəetməsinin təkmilləşdirilməsi baxımından önəmli uğurlara nail olunmuşdur. Belə ki, Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsində müəyyən edilmiş hədəflərə nail olmaq üçün mövcud vəziyyət nəzərə alınmaqla tədbirlər görülür, müvafiq imkanlardan və üstünlüklərdən tam istifadə edilir. Uyğun qiymətə mənzil təminatı layihələri aşağı və ortagəlirli gənc ailələrin, habelə müəyyən edilmiş sosial qrupların mənzil ehtiyaclarının ödənilməsinə istiqamətlənmişdir.

Uyğun qiymətə mənzil təminatı sahəsində yeni statistik göstəricilərin əldə edilməsi, eləcə də ölkə əhalisinin dövlət hesabına və güzəştli şərtlərlə mənzil şəraitinin yaxşılaşdırılmasına dair statistikanın təkmilləşdirilməsi Dövlət Statistika Komitəsinin prioritet inkişaf sahələrindəndir. Bu məqsədlə mövcud rəsmi statistika hesabatı formalarına dəyişiklik və əlavələr edilmiş, yeni rəsmi statistika hesabatı forması hazırlanmış və təsdiq edilərək Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində qeydə alınmışdır. Təsdiq olunmuş yeni hesabat forması mənzilləri güzəştlə əldə edən ailələrə və mənzillərə dair məlumatların toplanmasına və geniş istifadəçi auditoriyasına təqdim edilməsinə imkan yaradır.

*Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsində* qarşıya qoyulmuş əsas hədəf işəgötürənlərin peşə təhsili və təlimi sisteminə inteqrasiyası, nəticələrə əsaslanan güclü maliyyələşdirmə sisteminin yaradılması, məqsədli peşə inkişafı proqramlarının, sektorlar üzrə spesifik proqramların yaradılması, habelə peşə təhsili və təlimi üzrə hədəflərin əldə olunmasına təkan verəcək vasitələrin tətbiqi sahələrini əhatə edir. Qısa zamanda bu hədəflərə çatmaq məqsədilə peşə-ixtisas təhsilinin yenidən formalaşdırılması, peşə-ixtisas təhsili müəssisələrinin təkmilləşdirilmiş dövlət-özəl tərəfdaşlığına əsaslanan idarəetmə strukturunun yaradılması, peşə təhsili sisteminin özəl sektor üçün cəlbediciliyinin artırılması, peşə-ixtisas təhsili müəssisələrində müasir tələblərə uyğun yenilənmiş təhsil proqramlarının təmin olunması, peşə-ixtisas təhsili sistemində əmək bazarının tələblərinə cavab verə bilən mühəndis-pedaqoji kadrların hazırlanması, peşə-ixtisas təhsili müəssisələri məzunlarının işlə təminatının yüksəldilməsi və s. istiqamətlərində bir çox işlər görülmüşdür.

Belə ki, peşə təhsili və təlimi sektoru iqtisadiyyatın digər sektorları ilə qarşılıqlı əlaqədə olmaqla həmin sektorların potensialının tam reallaşdırılmasında mühüm rol oynayır. Peşə təhsili rəqabətqabiliyyətli iqtisadiyyatın və inkişaf etmiş cəmiyyətin təşəkkül tapmasında böyük əhəmiyyətə malik olduğundan iqtisadiyyatın inkişafı və sosial bərabərliyin təmin edilməsinə nail olmaq üçün müasir peşə təhsili sisteminin bərqərar olmasına xüsusi önəm verilir.

Səriştəli işçi qüvvəsinə olan tələbatı ödəmək üçün peşə təhsilinin inkişafı və işsizliyin azaldılması məqsədilə peşə təhsili sahəsində həyata keçirilən islahatlar sabahın işçi qüvvəsinin kiçik və orta sahibkarlığın üstünlük təşkil etdiyi dəyişən və rəqabətli əmək bazarının tələblərinə uyğun səviyyədə hazırlanması məqsədi daşıyır.

Peşə təhsilinin inkişafının təmin edilməsi istiqamətində görülən məqsədyönlü tədbirlərin tərkib hissəsi kimi ilk peşə-ixtisas təhsili sahəsində peşə hazırlığının səmərəliliyini artırmaq və rəqabətqabiliyyətli ixtisaslı kadrların hazırlanmasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" 2016-cı il 20 aprel tarixli 869 nömrəli Fərmanına müvafiq olaraq, Azərbaycan Respublikasının Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi yaradılmış, 2018-ci il 24 aprel tarixində isə "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.

*Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsində* qarşıya qoyulmuş əsas hədəf dinamik və sağlam institutlardan ibarət maliyyə sisteminin formalaşdırılması, maliyyə bazarlarının inkişafı, infrastrukturun gücləndirilməsi, tənzimləmə və nəzarət mexanizminin təkmilləşdirilməsi, habelə maliyyə savadlılığının yüksəldilməsi istiqamətlərini əhatə edir. Ötən dövr ərzində maliyyə sistemi üzrə ilkin quruculuq işlərinin başa çatması, sistemin inkişafı istiqamətində aparılmış islahatlar, yaranmış kadr potensialı maliyyə sisteminin yeni inkişaf mərhələsinə keçidinə zəmin yaratmışdır. Maliyyə institutları, xüsusən də banklar sağlamlaşdırılmış, maliyyə institutlarının likvidlik və kapitallaşma problemlərinin həlli üçün addımlar atılmış, qeyri-işlək aktivlərin restrukturizasiyası üzrə tədbirlər həyata keçirilmişdir. Maliyyə institutlarının səmərəli fəaliyyəti üçün kredit büroları kimi yeni infrastruktur elementləri yaradılmış, hüquqi baza inkişaf etdirilmişdir. Maliyyə sistemi daha mütərəqqi risklərin idarə edilməsi proseslərinə istiqamətləndirilərək maliyyə xidmətlərində və hesabatlılıqda şəffaflıq artırılmış, müştəriyönümlü xidmətlər və rəqəmsallaşmanı dəstəkləyən nəzarət mexanizmi formalaşdırılmışdır.

*Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsində* qarşıya qoyulmuş əsas hədəf idarəetmə strukturlarının təkmilləşdirilməsi və İKT-nin gücləndirilməsi, sahibkarlıq subyektlərinin fəaliyyətində məhsuldarlığın və əməliyyat səmərəliliyinin artırılması, hökumətin və sosial mühitin rəqəmsallaşdırılması, eyni zamanda rabitə əlaqələrinin inkişaf etdirilməsi, dayanıqlı telekommunikasiya infrastrukturunun formalaşdırılması, internetdən istifadənin genişləndirilməsi və özəl sektorun iştirakına təkan verilməsi məqsədilə normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətlərini əhatə edir. İKT sahəsində islahatlar ölkənin maliyyə, sosial, iqtisadi və mədəni inkişafı əsasında yeni iş yerlərinin yaradılmasını, özəl sektorun inkişaf etdirilməsini, o cümlədən dövlət büdcəsi gəlirlərinin artırılmasını və xərclərin səmərəli idarə edilməsini nəzərdə tutur. Strateji Yol Xəritəsi ölkədə informasiya-kommunikasiya texnologiyalarının inkişaf potensialının artırılması, iqtisadiyyatın rəqəmsallaşdırılması üçün İKT infrastrukturunun təkmilləşdirilməsi, İKT xidmətlərinə olan tələbin daxili mənbələr hesabına effektiv qarşılanması və dövlət sektorunun fəaliyyətində İKT-nin tətbiqi ilə səmərəliliyin daha da artırılması məqsədilə telekommunikasiya sektoru qarşısında duran yeni çağırışlar və imkanlar nəzərə alınmaqla hazırlanmışdır.

Strateji yol xəritəsində qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi ölkəmizdə informasiya və rabitə sahəsinin inkişaf səviyyəsində özünü daha qabarıq şəkildə göstərir. Belə ki, 2003-cü illə müqayisədə 2018-ci ildə göstərilmiş informasiya və rabitə xidmətlərinin dəyəri real ifadədə 12,2 dəfə və ya hər il orta hesabla 18,2 faiz artmışdır. Mövcud informasiya və rabitə sahələrinin intensiv və yüksək səviyyədə inkişafını, yeni xidmət növlərinin, o cümlədən mobil telefon rabitəsinin, internetin ölkəmizdə təşəkkül tapması və genişlənməsi ilə səciyyələndirmək olar.

Azərbaycanda İKT-nin inkişafı üzrə görülmüş işlər beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapmaqdadır. Belə ki, Dünya İqtisadi Forumunun "The Global Competitiveness İndex 2017-2018" hesabatında Azərbaycan 137 ölkə arasında 35-ci yerdə qərarlaşmışdır. Həmin hesabatın "Government procurement of advanced technology products" göstəricisi üzrə 14-cü, "FDİ and technology transfer" göstəricisi üzrə 29-cu yerdə qərarlaşmışdır.

WIPO (World İntellectual Property Organization), Cornell University və INSEAD-in ortaq əməkdaşlığı ilə "Global Innovation Index 2017" hesabatında Azərbaycan 127 ölkə arasında 3 pillə irəliləyərək 82-ci yerdə qərarlaşmışdır. Həmin hesabatın "ICT use" göstəricisi üzrə 45-ci, "Government's online service" göstəricisi üzrə 47-ci, "ICT access" göstəricisi üzrə isə 57-ci yerdə qərarlaşmışdır.

*Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsində* qarşıya qoyulmuş əsas hədəf kommunal xidmətlər sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsinə, tənzimləyici orqanların funksional səmərəliliyinin artırılmasına, xidmət müəssisələrinin fəaliyyət səmərəliliyinin və xidmət keyfiyyətinin yüksəldilməsinə, investisiya mühitinin münbitləşdirilməsinə, beynəlxalq norma və standartların tətbiqinə, kadr bazasının gücləndirilməsinə, tariflərin optimallaşdırılmasına və stimullaşdırıcı mexanizmlərin işlənib hazırlanmasına nail olmaqdır. Bu məqsədlə kommunal xidmətlər sektoruna daxil olan elektrik enerjisi, təbii qaz, su və istilik təchizatı istiqamətləri üzrə istehlakçıların tələblərini keyfiyyətli, səmərəli və günün tələblərinə uyğun şəkildə qarşılamaq üçün bir sıra kompleks islahatların aparılması tələb olunur. Bu sahə üzrə dayanıqlı inkişafın, rentabelliliyin təmin edilməsi, infrastrukturun genişlənməsi üçün diversifikasiya olunmuş istehsalın və paylanma şəbəkəsinin formalaşması və səmərəli idarəetmə sisteminin qurulması istiqamətlərində kompleks islahatlar həyata keçirilir. Energetika sahəsində aparılan uğurlu siyasətin nəticəsi olaraq son illər paylayıcı və ötürücü şəbəkələrində elektrik enerjisinin itkisinin azalması müşahidə olunur.

Ölkəmizdə ənənəvi elektrik enerjisi istehsalı ilə yanaşı, alternativ və bərpa olunan enerji mənbələri hesabına istehsal olunan elektrik enerjisinin həcmi artmaqdadır. Belə ki, alternativ və bərpa olunan enerji mənbələri tərəfindən istehsal olunan enerjinin ümumi enerji istehsalında xüsusi çəkisi 2017-ci ildə 8,1 faiz, 2018-ci ildə isə 9,1 faiz təşkil etmişdir. Son illərdə təmiz suya olan ehtiyaclarının ödənilməsi məqsədilə bir sıra tədbirlər həyata keçirilmiş, ölkə regionlarında əhalini təmiz içməli su ilə təmin edən modul tipli təmizləyici qurğular quraşdırılmış, magistral və şəbəkə su xətləri tikilmiş, mühüm infrastruktur layihələr həyata keçirilmişdir.

Ötən iki ilin rəsmi statistika məlumatlarının təhlili və yuxarıda qeyd olunan digər faktlar bir daha onu deməyə əsas verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə strateji yol xəritələrinin müəyyən edilmiş müddətdə uğurla reallaşdırılması təmin ediləcək və qarşıya qoyulan məqsədlərə nail olunacaqdır. ■












# 20 Yanvar şəhidlərinin xatirəsi Konstitusiya Məhkəməsində ehtiramla anılıb

**Azərbaycanın yeni tarixinin hüznlü və eyni zamanda, qürur doğuran səhifəsi olan 20 Yanvar faciəsindən 29 il ötür. Hər il olduğu kimi, bu il də 20 Yanvar şəhidlərinin əziz xatirəsi Konstitusiya Məhkəməsi tərəfindən ehtiramla yad edilib.**

Anım mərasimində Konstitusiya Məhkəməsinin hakimləri və Aparatın əməkdaşları iştirak ediblər.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Mərasimdə çıxış edən Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev 20 Yanvar faciəsini müstəqil Azərbaycanın tarixində mühüm dönüş nöqtəsi, istiqlal yolumuzun başlanğıcı kimi qiymətləndirib. Bildirilib ki, XX əsrdə insanlığa qarşı törədilmiş qırğınların, zorakılığın ən dəhşətli səhifələrindən olan 20 Yanvar faciəsi xalqımızın qan yaddaşına əbədi həkk edilib.

Qanlı Yanvar hadisələrinin mahiyyətindən danışan Fərhad Abdullayev bildirib ki, bu terror aktı Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdlərinə, keçmiş SSRİ rəhbərliyinin ölkəmizlə bağlı yürütdüyü qərəzli siyasətə, yerli rəhbərliyin xalqımızın mənafeyinə zidd mövqedə durmasına qarşı etiraz əlaməti olaraq küçələrə çıxmış dinc əhaliyə divan tutmaq məqsədilə törədilib. Bakıya və respublikanın digər rayonlarına sovet hərbi hissələrinin yeridilməsi imperiyanın yürütdüyü siyasətin iç üzünü göstərdi. Dinc əhalinin kütləvi etiraz aksiyalarının ağır hərbi texnika vasitəsilə vəhşicəsinə dağıdılması təkcə süquta uğramaqda olan sovet siyasi sisteminin qorunması cəhdi idi.

Qeyd olunub ki, xalqını bu ağır günlərdə tək qoymayan Azərbaycan xalqının böyük oğlu, ümummilli lideri Heydər Əliyev yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək terror aktını pisləyən tarixi bəyanatla çıxış etdi. Dahi şəxsiyyət özünün və ailə üzvlərinin həyatının təhlükə altında olmasına baxmayaraq, böyük cəsarət göstərərək 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verib, o vaxtkı SSRİ və respublika rəhbərlərinin günahı və xəyanəti üzündən törədilmiş bu cinayətin hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu göstərdi.

Diqqətə çatdırılıb ki, Ümummilli Liderin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinin baş verməsinin səbəblərinin araşdırılması və onu törədənlərin məsuliyyətə cəlb olunması istiqamətində mühüm addımlar atıldı. Məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 20 Yanvar faciəsinə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi, Milli Məclis 1994-cü ilin martında bu barədə qərar qəbul etdi. Həmin hüquqi sənədlə 20 Yanvar hadisələri Azərbaycan xalqına qarşı hərbi təcavüz və cinayət kimi qiymətləndirildi.

Ulu Öndərin şəhid ailələrini və əlilləri dövlət qayğısı ilə əhatə etdiyini vurğulayan sədr deyib ki, Ümummilli Liderin siyasi xəttini böyük uğurla davam etdirən Prezident İlham Əliyev şəhid ailələrinin və sağlamlıqlarını itirmiş şəxslərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya məqsəd qoyub. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 20 Yanvar şəhidlərinin ailələrinə Prezident təqaüdü təyin edilib və dövlətimiz tərəfindən onlara daim yardımlar göstərilir. Şəhidlərin xatirəsinin əbədiləşdirilməsi məqsədilə ölkəmizdə bir çox abidə kompleksləri yaradılıb.

Sonra Konstitusiya Məhkəməsinin hakimləri və Aparatın əməkdaşları 20 Yanvar faciəsindən bəhs edən, rejissor Elxan Cəfərovun ekranlaşdırdığı, müəllifi Əməkdar jurnalist Aqil Abbas olan "Dolu" filminə baxıblar.

Anım mərasiminin davam olaraq, Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında 20 Yanvar faciəsi qurbanlarının xatirəsinə həsr olunmuş anım gecəsində Xalq artisti Rauf Abdullayevin dirijorluğu ilə Ü.Hacıbəyli adına Azərbaycan dövlət simfonik orkestrinin ifasında V.A.Motsartın "Rekviyem" əsərinin dinlənilməsi nəzərdə tutulub.

**AZƏRTAC**

# Azərbaycan Ağsaqqallar Şurasının üzvləri Şəhidlər xiyabanını ziyarət ediblər

**Yanvarın 18-də Azərbaycan Ağsaqqallar Şurasının üzvləri, veteranlar və ziyalılar 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə əlaqədar Şəhidlər xiyabanını ziyarət ediblər.**



AZƏRTAC xəbər verir ki, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin məzarları üzərinə güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov jurnalistlərə müsahibəsində bildirib ki, 20 Yanvar şəhidlərinin xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq. Azərbaycan xalqı Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsini yad edir.

Fəttah Heydərov sovet ordusunun keçmiş SSRİ rəhbərliyinin göstərişi ilə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda və respublikanın digər şəhər və rayonlarında günahsız insanlara qarşı cinayət törətdiyini qeyd edib. O vurğulayıb ki, Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olmuş qəhrəman övladlarımızın əziz xatirəsi həmişə qəlbimizdə uca tutulacaq. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hadisələrdən dərhal sonra imperiyanın mərkəzində - Moskvada bu cinayətə etiraz edərək öz xalqı ilə həmrəylik nümayiş etdirdi. Heydər Əliyev xalqın təkidi ilə hakimiyyətə qayıtdıqdan sonra 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymətin verilməsi istiqamətində mühüm addımlar atdı.

**AZƏRTAC**

# 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar Şəhidlər xiyabanında hazırlıq işləri görülür

**İyirmi Yanvar faciəsinin 29-cu ildönümü ilə əlaqədar Şəhidlər xiyabanında hazırlıq işləri görülür.**




AZƏRTAC xəbər verir ki, faciənin ildönümü ilə əlaqədar qərənfillərdən xüsusi kompozisiyalar hazırlanır. Xiyabanın girişindəki bu kompozisiyanı güllərdən döşənən xalça və məzarlaradək divarlarda səkkizguşəli ulduzların üzərinə vurulan bir cüt qərənfil tamamlayacaq. Anım gününə bir neçə gün qalsa da, artıq ziyarətçilərin xiyabana axını müşahidə olunur. Ziyarətçilər arasında məktəblilər, müəllimlər və xarici ölkə vətəndaşları da var.

Hazırlıq işlərinin yanvarın 19-dək başa çatdırılması planlaşdırılır. Yanvarın 19-20-də vətəndaşların sərbəst və maneəsiz hərəkətini təmin etmək məqsədilə təhlükəsizlik tədbirləri görüləcək. Yanvarın 20-də səhər saatlarından Şəhidlər xiyabanı istiqamətində nəqliyyatın hərəkəti məhdudlaşdırılacaq.

Xatırladaq ki, Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin Sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib. Sərəncama əsasən paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində 20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümü ilə əlaqədar hüzn əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər planlaşdırılır.

**AZƏRTAC**

# ŞƏHİDLƏR ƏBƏDİYAŞARDIR

Zaman ötür, fəsillər dəyişir, illər əsrlərə, əsrlər minilliklərə çevrilir, tarixə dönür. Zaman kəsiyində bir çox tarixi hadisələr baş verir. Bəzi tarixi hadisələr müəyyən dövrdən sonra yaddan çıxır, unudulur. Lakin elə zaman, tarixi hadisələr var ki, heç vaxt unudulmur. Nəsillər birbirini əvəz etdikcə bu tarixi gün daha çox xatırlanır, insanların yolunu işıqlı bir zirvəyə doğru aparır. Bu zirvə ən ali, müqəddəs və şərəfli olan şəhidlik zirvəsidir. Çünki şəhidlər uca Tanrının, Vətənin, millətin yolunda şüurlu surətdə canlarını fəda edən insanlardır. Bu cür insanlar yüksək əxlaqi keyfiyyətə malik olmaqla, qəlblərində Allaha, Vətənə, millətə sevgisi olduğu üçün sonda Allahın rizasını qazanaraq şəhadət mərtəbəsinə ucalırlar.

Allahın insanlara göndərdiyi müqəddəs "Qurani-Kərim"də buyurulur: "Şəhidlərə ölü deməyin, onlar diridirlər və Allahın nemətləri ilə faydalanırlar, ancaq siz bunu bilməyirsiniz". Şəhidlik ölümlərin ən şərəflisidir. Qanlı 20 Yanvar gecəsində qeyrət köynəklərini qana hopduran, canlarını vətənə fəda edən igid oğul və qızlarımız doğma Azərbaycanımızın müstəqilliyinə öz qanları ilə imza ataraq müqəddəs Şəhidlik Zirvəsini fəth etdilər. Şəhidi olmayan xalq torpaq məhəbbətindən, yurd sevgisindən məhrumdur. Şəhidi olmayan xalqın mənliyi, kimliyi bilinməz, azadlığı qanı ilə, canı ilə qazanmayan xalq hər vaxt kölə kimi gözüqıpıq, həyəcan içində yaşayar.

"Şəhidlər ölməzlərdi, ölməzi ağlamazlar!" rədifli şeirimi yazmaqla nisgilli anamıza, dərdli bacımıza, çatıq qaşlı atamıza "ağlama", - deyirəm, çünki şəhidlər öz qanları bahasına zəncirləri qıra-qıra, zülmətləri yara-yara işıqlı sabaha, xoşbəxt gələcəyə yol açaraq ulu Allahın müqəddəsliyinə qovuşublar, öz ölümləri ilə ölməzlik qazanıblar.

1990-cı ilin yanvar gecəsi SSRİ-nin "xilaskar ordusu", "sülh ordusu" öz müstəqilliyi uğrunda mübarizəyə qalxmış xalqa divan tutmaq və Bakını susdurmaq istəyi ilə hücum etdi.

Azərbaycanın paytaxtı Bakı şəhəri dəhşətli anları keçirdi. Evlər gülləbaran edildi, küçələr, bağlar viranəyə döndü, ağır itkilər verdik! Lakin xalqın iradəsi, əzmi, birliyi qələbə çaldı.

Millətimizin ən qeyrətli övladları azadlıq uğrunda şəhid olmaqla milli müstəqilliyimizi yaxınlaşdırdılar. Azərbaycanın vətən, müstəqil demokratik ölkə olmağını təsbit etdilər. Ancaq dözümlü xalqımız bu dəhşətli anlarda özünü itirmədi, ayağa qalxdı, müstəqilliyini bərpa etdi.

Şəhidlər bizim həm nisgilimiz, kədərimiz, ürək ağrımız, həm də qürurumuz, vüqarımız, fəxrimiz, ölməzliyimiz, örnəyimizdir. Şəhidlər Xiyabanı əbədi ziyarətgahımızdır.

Bu gün hər bir Azərbaycan vətəndaşı, xarici ölkələrdə yaşayan soydaşlarımız unutmamalıdır ki, işğal edilmiş Qarabağ torpaqları, Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan düşmən tapdağı altındadır. Birliyimizi, müstəqilliyimizi göz bəbəyi kimi qorumalıyıq. Xalqımızın igid övladları, qüdrətli Milli Ordumuz xalqla birlikdə öz torpaqlarını azad edəcək, zəfər çalacaqlar. O günə çox qalmayıb...




Şəhidlər şərəf, qeyrət, ucalıq zirvəsidir,
Şəhidlər azadlığın od-şimşək zərrəsidir.
Şəhidlər tarixləşən - istiqlal türbəsidir,
Şəhidlər şimşək kimi buludlar saxlamazlar.
Şəhidlər ölməzlərdi, ölməzi ağlamazlar!

Şəhidlər Vətən daşı, yurdun vətəndaşıdır,
Şəhidlər azadlığın uca heykəl daşıdır.
Şəhidlər məmləkətin, xalqın qan yaddaşıdır.
Şəhidlər unudulmaz, ölməz, can dağlamazlar.
Şəhidlər ölməzlərdi, ölməzi ağlamazlar!

Şəhidlər doğulan gün əbədiyyət başlayır,
Şəhidlər Vətənləşir ürəklərdə yaşayır.
Şəhidlər karvanını zaman özü daşıyır,
Şəhidlər cənnət əhli matəm, yas saxlamazlar,
Şəhidlər ölməzlərdi, ölməzi ağlamazlar!

"Şəhidlər Xiyabanı" müqəddəs pirimizdi,
"Şəhidlər Xiyabanı" ziyarət yerimizdi.
Şəhidlər qürur rəmzi, özünü dərkimizdi.
Şəhidlər qeyrət qanı, axmasa çağlamazlar,
Şəhidlər ölməzlərdi, ölməzi ağlamazlar!

Şəhidlər ana yurdu tutdular candan baha,
Şəhidlər yollar açdı, qaranlıqdan sabaha.
Şəhidlər ölməz ruhla, gedir üzü Allaha,
Şəhidlər gedən yolu tufanlar bağlamazlar.
Şəhidlər ölməzlərdi, ölməzi ağlamazlar!

**Oqtay ZƏNGİLANLI,**
**şair-publisist.**

# Energetika Nazirliyində 20 Yanvar faciəsinin 29-cu ildönümü qeyd edilib

**Energetika Nazirliyində 20 Yanvar faciəsinin 29-cu ildönümü münasibətilə anım mərasimi keçirilib. Mərasim Azərbaycanın müstəqilliyi və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman vətən övladlarının xatirəsinə bir dəqiqəlik**




**sükutla başlanıb. Daha sonra çıxış edən energetika nazirinin müavini Samir Vəliyev 29 il əvvəl Azərbaycanın azadlığı, suverenliyi arzusu ilə ayağa qalxmış dinc insanlara qarşı Sovet imperiyasının silahlı birləşmələrinin törətdiyi cinayətlərdən danışaraq, 20 Yanvar hadisəsini milli tariximizin qəhrəmanlıq səhifələrindən biri kimi qiymətləndirib.**

Mərasimdə 20 Yanvar faciəsinə ilk siyasi qiymətin ümummilli lider Heydər Əliyev tərəfindən verildiyi qeyd edilib. Bilidirilib ki, Azərbaycan dövləti şəhidlərimizin xatirəsini daim uca tutur. Şəhid ailələrinin, müharibə əlillərinin problemlərinin dövlət səviyyəsində həlli, onların sosial təminatının ildən-ilə daha da möhkəmləndirilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasətin əsas prioritetlərindən biridir.

Anım mərasimi 20 Yanvar faciəsindən bəhs edən sənədli filmin nümayişi ilə başa çatıb.

**Səfər MAHMUDZADƏ,**
**"Respublika".**

# BMU-da 20 Yanvar faciəsinin 29-cu ildönümünə həsr olunmuş tədbir

Bakı Mühəndislik Universitetində Azərbaycanın azadlıq və müstəqillik mübarizəsi tarixinə qəhrəmanlıq səhifəsi kimi yazılmış 20 Yanvar faciəsinin 29-cu ildönümünə həsr olunmuş anım tədbiri keçirilib. Şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayan tədbirdə faciəni özündə əks etdirən sənədli film izlənilib.



Universitetin rektoru, professor Havar Məmmədov faciə və o dövrdə ölkədəki vəziyyətlə bağlı tədbir iştirakçılarına məlumat verib. Bildirib ki, 20 Yanvar hadisələri keçmiş sovet dövlətinin həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktıdır. Bu qanlı hadisə nəticəsində 131 nəfər qətlə yetirilmiş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur.

Rektor qeyd edib ki, o zaman yalnız ümummilli liderimiz Heydər Əliyev bütün çətinliklərə baxmayaraq siyasi iradə nümayiş etdirib və Moskvadakı Azərbaycan nümayəndəliyinə gələrək SSRİ rəhbərliyinin törətdiyi bu cinayəti qətiyyətlə ittiham edən bəyanatla çıxış edib. Heydər Əliyevin təşəbbüsü ilə 1994-cu ilin yanvar ayında Milli Məclisdə Azərbaycan xalqına qarşı törədilmiş 20 Yanvar hadisələrinə siyasi qiymət verildiyini diqqətə çatdıran rektor, bu gün də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, o cümlədən onların ailələrinin sosial müdafiəsinin gücləndirilməsinin daim diqqət mərkəzində saxlanıldığını, bu istiqamətdə mühüm tədbirlər həyata keçirildiyini vurğulayıb.

BMU Tələbə Gənclər Təşkilatının sədri Elnur Mirzəyev və universitetin İqtisadiyyat və İdarəetmə fakültəsinin tələbəsi Günel Salahova çıxış edərək 1990-cı il Yanvar qırğınının nə qədər faciəli olsa da, Azərbaycan xalqının iradəsini, milli azadlıq uğrunda mübarizə əzmini qırmadığını bildiriblər. Həmin gecədə həlak olan vətən övladlarının xalqın milli azadlığı və müstəqilliyi uğrunda göstərdikləri qəhrəmanlıqlarla Azərbaycan tarixinə parlaq səhifələr yazaraq bütün gənclərə örnək olduqlarını, eləcə də 20 Yanvar faciəsinin müstəqil Azərbaycan dövlətinin tarixinə xalqımızın şərəf və qəhrəmanlıq səhifəsi kimi yazıldığını diqqətə çatdırıblar.

**M.MİRZƏ,**
**"Respublika".**

# 20 Yanvar şəhidlərinin xatirəsi Ukraynanın Dnepr şəhərində yad edilib

**Dnepropetrovsk vilayət Azərbaycanlıları Konqresinin təşkilatçılığı və Azərbaycanın Ukraynadakı səfirliyinin dəstəyi ilə Dnepropetrovsk vilayət deputatlar şurasının binasında 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə bağlı anım tədbiri keçirilib. Anım mərasimində Dnepropetrovsk vilayətinin rəsmi nümayəndələri, vilayət şurasının deputatları, diaspor və media təmsilçiləri iştirak ediblər. Şəhidlərimizin xatirəsinin 1 dəqiqəlik sükutla yad olunduğu tədbirdə 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə sovet qoşunlarının ölkəmizdə həyata keçirdiyi qırğınları özündə əks etdirən film nümayiş etdirilib.**






Anım mərasimində çıxış edən Dnepropetrovsk vilayət Azərbaycanlıları Konqresinin sədri Nəcəf Əhmədov, vilayət şurasının deputatı Qoşqar Muxtarov, Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin sədr müavini Qüdrət Hacıyev, diaspor fəalı Zöhrab Cəfərov və digər soydaşlarımız qeyd ediblər ki, 20 Yanvar faciəsi dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı Azərbaycanın müstəqil dövlətçilik ideologiyası ətrafında birləşdirən qəhrəmanlıq tarixidir. 29 il bundan öncə Azərbaycanın Dövlət müstəqilliyi uğrunda mübarizə apararaq şəhid olmuş qəhrəman oğul və qızlarımız bir daha sübut etdilər ki, xalqımızın müstəqillik və azadlıq əzmini sındırmaq olmaz. Həmin gecə sinələrini müstəqilliyimizə tuşlanmış gülləyə sipər edən oğul və qızarımızın qəhrəmanlıq şücaətinin heç zaman unudulmayacağını, bu şanlı tarixin gələcək nəsillərə örnək olacağını bildiriblər.

Tədbirdə Dnepropetrovsk vilayətinin rəsmi nümayəndələri və bir sıra xalqların diaspor rəhbərləri çıxış edərək aradan 29 il keçməsinə baxmayaraq, 20 Yanvar faciəsini törədənlər haqqında heç bir ölçü götürülməməsini tarixi ədalətsizlik kimi qiymətləndiriblər. Gec-tez Bakı qırğınlarında əli olan cinayətkarların ədalət məhkəməsi qarşısında cavab verəcəklərinə əmin olduqlarını bildiriblər.

**Möhsün QƏDİROĞLU,**
**Azərbaycan Televiziyasının**
**Ukrayna və Şərqi Avropa**
**Bürosunun rəhbəri.**

# Azərbaycan yeni idman oyunlarının vətənidir



**Kimyaçı alim Rəsul Rəxşanlı idman masaüstü oyunları və oyun dəstlərini ixtira edərək bir neçə patent almışdır. Nəticədə Azərbaycan da idman aləminə idman masaüstü oyunları vermiş azsaylı ölkələrdən birinə çevrilmişdir. Oyunlar müxtəlif təyinatlıdır, onların arasında analoqu olmayanı, analoqundan daha yüksək olanı da vardır. Bu yeniliklərlə bağlı müxbirimiz ixtiraçı alimlə görüşüb ondan müsahibə almışdır.**

**–Məhz idman masaüstü intellektual oyunlarının yaradılması ixtiraçılıq sahəsindəki nadir hadisələrdəndir. İndiyədək, necə deyərlər, barmaqla sayıla bilinəcək sayda ölkələr buna nail olub. Maraqlıdır, necə oldu ki, belə nadir sahədə məşğul olmağa başladınız?**

–Xatirələr məni keçmişə aparır. Uşaqlıqda domino və nərd oyunları oynayarkən onların sadə olduğunu və nisbətən daha çox intellekt tələb edən oyunlar yaratmasını istəyirdim. Onilliklər ərzində gözlədim, yenilərini yaradan olmadı. Həmin illər ərzində özüm də yeni oyunlar haqda düşünürdüm. Mənim təsəvvürümdə yeni oyunların ayrı-ayrı hissəcikləri, qaydaları yaranırdı. Belə hissəciklər, hətta, şahmat oynayarkən və ya məşhurlar arasındakı matçların təhlili haqda oxuyarkən də peyda olurdu. Son nəticə etibarilə mənə aydın oldu ki, istədiyim yeni oyunları yaratmaq üçün ilk növbədə yeni oyun dəstləri hazırlanmalıdır. Onlar da hazırlandı, oyunlar da. İlk vaxtlar yaxınlarla, tanışlarla oynayırdıq. Onlar təsdiqlədilər ki, dəstlər də, oyun qaydaları da yenidir və kifayət qədər fərqlidir.

Daha sonra uşaqların intellektual inkişafına kömək olacaq istiqamətində işlədim. Hələ XIX əsrin pedaqoq və psixoloqları demişlər ki, uşaqların intellektual inkişafı üçün onların məktəbəqədər yaşlarından başlayaraq əyləncəli oyunlar oynaması vacibdir. Müxtəlif növ belə oyunlar yaradılıb və uşaqlar oynayırlar. Həqiqətən təsiri var, lakin arzu olunan dərəcədə yox. Niyə? Ona görə ki, uşaqlar əyləncəli oyunlara elə əyləncə kimi yanaşırlar.

Bəs nə etməli? Azyaşlı uşaqlar üçün də məhz idman masaüstü oyunları yaratmaq vacibdir. İdman oyunları üzrə şəhər, ölkə, qitə və Dünya çempionatları, habelə yerli, regional və beynəlxalq turnirlərin keçirilməsi mümkündür. Uşaqlar çempion adı və mükafatlar qazanmaq məqsədilə ciddi məşq etməli və yarışların iştirakçısı olmalıdırlar. Beləliklə, onların intellektual inkişafı daha yüksək olacaq.

**–Gəlin, öncə ilk oyunlar haqda oxucuları məlumatlandıraq. Onlar nə ilə fərqlənir? Niyə onların ixtirasına patent verilmişdir?**

–Şərti olaraq "yüksək domino" adlandırılan oyun dəsti 36 daşdan (mən onları şana adlandırıram) ibarətdir. Şanaların üz tərəfi 3 xanaya bölünür, xanalarda 1-dən 9-dək xal olur. Oyunda gediş edərkən şanalar bir-birinə yan-yana, başqa sözlə, paralel qoyulur. Hər şana özündən əvvəlkinin 1 və ya 2 xanasını tuta bilir. Oyun öncəsi isə oyunçular 9 şana götürürlər. Oyun dəsti ilk baxışda kiməsə domino təsiri bağışlaya bilər, lakin bu, aldadıcıdır. Şanalar və oyun qaydaları fərqlidir, oynamağa daha yüksək intellekt tələb edir. Yeni oyun dəstinə və oyuna görə patent verilib.

Bir məqam yadıma düşdü. Moskvada, Elmlər Akademiyasında tədqiqat apararkən professora göstərdim. Belə fikir söylədi ki, bu oyun dominodan birbaş yüksək oyundur, üzə çıxarılsa Beynəlxalq Domino Federasiyası da, milli federasiyalar da bu top-domino üzrə tezliklə yarışlar keçirmək istəyər.

İnsanlar daim yeniliyə can atır. Yenilik, inkişaf isə sadədən mürəkkəbə, aşağıdan yüksəkə doğru gedir. Odur ki, top-domino üzə çıxarsa onu oynamaq istəyənlər domino oynayanlardan qat-qat çox olacaqdır.

**–Aydındır. Nərd oyunları haqda nə deyə bilərsiniz?**

–5 000 ildir ki, nərd dəsti, ona bizdə nərdtaxta da deyilir, icad edilib. Bu zaman ərzində 100-dən artıq oyun yaradılıb. Dünya və qitə çempionatları, milli çempionatlar, beynəlxalq turnirlər backgammon (döymə) və longgammon (uzun) oyunları üzrə keçirilir. Bəzi ölkələrdə isə, həmçinin, özlərinin hazırladıqları milli nərd oyunlar üzrə yarışlar aparılır. Həmin növ oyunların qaydaları arasında prinsipial fərqin olduğunu demək çətindir. Çünki eyni nərd dəsti ilə oynanılır. Üstəlik də oyunlar yüzilliklər ərzində oynanıldığından oyunçulara bəlkə də darıxdırıcı görünür. Prinsipcə yeni oyunlar üçün ilk növbədə fərqli nərdtaxta hazırlanmalıdır. Yəni, ilk növbədə məhz bu məsələ həll edilməlidir. Beləsi hazırlandı. Azərbaycan nərd dəstindəki zərlər 8 üzlü, xanalar 32(=8x4), daşlar isə 40(=20+20) ədəddir. Beləsinin oyun imkanları hazırda oynanılan klassik nərdinkindən qat-qat genişdir. Bu nərd dəstində oynamaq üçün 2 oyun hazırlandı. Beynəlxalq aləmdə geniş miqyasda oynanılan backgammon və longgammon oyunları həm yeni nərddə, həm də prinsipcə fərqli qaydalarla. Backgammon-azəri və longgammon-azəri oyunları. Beynəlxalq yarışlarda Azərbaycan nərdini və oyunlarını nümayiş eləmişəm. Beynəlxalq Backqammon Federasiyasının (BBF) rəsmisinə, Türkiyənin BBF-dakı nümayəndəsinə, Rusiya Nərd Federasiyasının prezidentinə, dünyanın məşhur nərd oyunçularına da. Maraq böyükdür. Niyə ölkəmizdə öz oyunlarımız üzrə yarışların keçirilməməsi, nərdimizin istehsal edilməməsi ilə maraqlanırlar. Bu tədbirlər həm də gəlirli sayılır. Yeni nərdin vətənində ilk yarışlar keçirilsəydi, tezliklə yayılardı.

Fərəhli haldır ki, 5 000 ildən sonra məhz Azərbaycanda yeni nərd dəsti və oyunları yaradılıb. Bu idman sahəsindəki ixtiralara görə məhz bizim respublikamızda patent alınıb. Nərd üzrə yarışların keçirilməsi gəlirli sahədir. Nərdtaxtalar bir neçə yüzdən bir neçə min dollaradəkdir. Bu istiqamətdə iş aparılması müsbət nəticələr verə bilər. Biz Bakıda Azərbaycan nərd oyunları üzrə yarışlar keçirilməsini ənənə halına sala bilərik.

**–Bu münasibətlə sizi təbrik edirəm. Analoqu olmayan oyun haqqında bir neçə kəlmə deyəydiniz. O nə ilə fəqlidir?**

–Həmin oyunu görənlər sakincə aralana bilməyirlər. Çox cazibədardır. 3 guşəli şanaların guşələrində rəqəmlər durur. 6 ədəd 3 guşəli şana baş-başa elə qoyulmalıdır ki, altıguşəli fiqur alınsın. Baş-başa qoyulan guşələrdəki rəqəmlər isə eyni olmalıdır. Belə oynamaqla çox fiqur yaratmağı bacaran oyunşu qalib sayılır. Bu oyun oynanılarkən hər gediş ciddi təhlil edilməlidir. Əks halda qurub-yaratdıqlarından rəqib faydalanaraq qələbə qazanar.

**–İndi də uşaq oyunları haqda. Yəqin ki, uşaq idman oyunları böyüklərin oyunlarından fərqlənməlidir. Elə deyilmi?**




–Fikriniz tamamilə məntiqlidir. Azyaşlı uşaqların saya bilmək və düşünmək bacarığının məhdudluğu nəzərə alınmalıdır. Azyaşlı uşaqların intellektual inkişafı vacib məsələdir. Hələ XIX əsrin pedaqoq və psixoloqları məktəbəqədər yaşlı uşaqların intellektual inkişafı üçün onların əyləncəli oyunlar oynamasının əhəmiyyətini vurğulamışdı. Müxtəlif səpkili belə oyunlar yaradıldı. Əksər ölkələrdə uşaqları həmin oyunları oynayırlar. Bəli, azyaşlı uşaqların intellektual inkişafına onların təsiri var, lakin arzuolunan dərəcədə deyil. Səbəbini araşdırdım. Uşaqlar əyləncəli oyunlarla ciddi məşğul olmağa həvəs göstərməyirlər. Bunun üçün isə onlarda motivasiya yoxdur. Fikrimcə azyaşlı uşaqlar üçün xüsusi idman, diqqət yetirin, məhz idman masaüstü intellektual oyunlar yaradılmalıdır. Elə oyunlar ki, uşaqlar şəhər, ölkə, qitə və dünya çempionatlarında, eləcə də yerli, regional və beynəlxalq turnirlərdə yarışa bilsinlər. Belə oyunlar olarsa uşaqlar ciddi hazırlaşacaqlar, yarışlarda iştirak edəcəklər. Nəticədə onların intellektual inkişaf tempi də yüksək olacaq. Uşaqlar üçün bu qəbildən olan 3 oyun dəsti və 8 oyun hazırlanmışdır. Bunlara görə 2 patent alınmışdır. Birinci oyun dəsti 18 şanadan ibarətdir. Onların üz tərəfində 3 xana olur. Xanalardakı xalların sayı 1-dən 3-ə qədərdir. Bu dəstlə oynamağa 2 oyun hazırlanıb. 3-dək saymağı bacaran uşaqlar bu oyunlarla dünya, qitə, ölkə və şəhər çempionluğu uğrunda mübarizəyə qoşula bilər. İkinci oyun dəsti 4-dək saymağı bacaranlar üçündür. Dəstdə 15 şana olur. 2 oyun var. Üçüncü dəst haqda nisbətən geniş danışaq. Bu da 4-dək sayanlar üçün hazırlanıb. Uşaqlar da nərd oynamağa həvəs göstərirlər. Onlar üçün nisbətən sadəsini düzəltmək lazım gəlib. Zərlər 4 üzlü, xanalar 16(=4x4) və daşlar 20(=10+10) ədəddir. Uşaqlara 4 oyun düşünülüb. İkisi döymə, ikisi uzun. Onların yarısı hazırda beynəlxalq aləmdə oynanılan oyun qaydaları, digər yarısı isə Azərbaycan nərd oyunları qaydaları əsasındadır.

Fərəhli haldır ki, ilk dəfə məhz Azərbaycanda uşaq idman masaüstü oyunları yaradılması ideyası ortaya qoyulmuş və həll edilmişdir. Bütün uşaq oyunları üzrə dünya çempionatı, beynəlxalq turnir keçirə bilərik. Yerli çempionat və turnir təşkil etmək olar. Bunlar isə nəticə etibarı ilə balalarımızın, dünya uşaqlarının intellektual inkişafına təkan verəcək.

Uşaqların intellektual inkişafı təkcə onların özlərinin həyatı üçün deyil, həm də xalqın və ölkənin, bütövlükdə isə bəşəriyyətin, planetimizin gələcəyi üçün əhəmiyyət kəsb edən problemdir. Uşaqlar yeni oyunları oynayarkən intellektlərini tam işə salmaq məcburiyyətində qalacaqlar. Nəticədə, onların fərqli inkişafının şahidi olacağıq. Bu oyunlar uşaqlarda həmçinin diqqətlilik, məntiqi düşüncə, qələbə uğrunda mübarizə aparmaq əzmi, məqsədyönlülük, ehtiyatlılıq hissi kimi keyfiyyətlər aşılayacaqdır. Eləcə də əllərin xoş hərəkətlərinə, dünyanın müxtəlif guşələrindən olan uşaqlarla təmasda olmaq imkanı yaradacaq və bu məqsədlə həm də əcnəbi dillər öyrənmək istəyi ortaya çıxacaqdır.

Bu məqsədlə ilk dəfə olaraq məqsədyönlü axtarışların Azərbaycanda aparılması qürur hissi doğurmaya bilməz. Oyun qaydaları sadə, davamiyyəti qısamüddətlidir. Qaydalarını uşaq bağçalarında, məktəbəqədər uşaq müəssisələrində, hazırlıq siniflərində, məktəblərin aşağı siniflərində, uşaq idman mərkəzlərində, eləcə də ailədə öyrənmək olar. Uşaq idman federasiyaları yaratmaq da yaxşı nəticə verərdi. Təhsil Nazirliyinin "Azyaşlı uşaqların intellektual inkişafının idman masaüstü oyunlar vasitəsilə inkişaf etdirilməsi" xüsusi proqramı üzrə iş aparması gözəl nəticələnərdi. Digər ölkələrin mütəxəssisləri də bizdən öyrənərdi.

**–Bunların idman ölkəsinə çevrilmiş respublikamızda ixtirası yəqin ki, təbiidir.**

–Azərbaycanın dünya miqyasında idman ölkəsi kimi tanınması bizdə haqlı olaraq qürur hissi doğurur. Respublikamız güclü idmançıların Vətəni, beynəlxalq yarışların gözəl təşkilatçısı kimi ad qazanmışdır. Lakin idman aləmində daha bir uca zirvə vardır ki, onun fəthinə son dərəcə az sayda, necə deyərlər, barmaqla sayıla bilinəcək qədər ölkə müvəffəq olmuşdur. Bu, idman aləminə məhz idman masaüstü oyun dəsti və oyunu verilməsidir. Məhz idman oyunu, yəni elə oyun ki, ölkə, dünya çempionatlarına, eləcə də müxtəlif miqyaslı turnirlər keçirilməsinə yararlı olsun. Bu intellekt tutumlu işlərin nəticəsində Azərbaycan da idman aləminə masaüstü oyun dəsti və oyunu vermiş azsaylı ölkələrdən birinə çevrilmişdir, lakin de-yure. Təkrar edirəm, həmin oyunların hər biri üzrə çempionatlar və turnirlər keçirilə bilər.

Göründüyü kimi, oyunlar müxtəlif səpkilidir. Analoqu olmayanı da, analoqundan yüksək göstəricilərə malik olanı da, yeni təyinatlısı da vardır. Belə yeniliklərin Vətəni Azərbaycandır. Artıq üçə və dördə qədər saymağı bacaranlar arasında çempionatlar və turnirlərin keçirilməsini reallaşdırmaq mümkün olacaqdır. Oyun dəstləri və oyunlar ölkədə və xaricdə uşaqlara, valideynlərə və idmançılara göstərilmişdir. Rəylər müsbətdir, lakin təəssüf doğuran məqamlar vardır. Oyun dəstlərinin harada alına bilinəcəyi və yarışların nə vaxt keçiriləcəyi sualları hələlik cavabsız qalır.

Bu ixtiralar haqqında, həmçinin "Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişaf perspektivləri" elmi-praktik konfransında (2008-ci il), eləcə də "Avropa Ədalətli Oyunlar Hərəkatının 15-ci konfransı"nda (2009-cu il) məruzələr edilmişdir. Azərbaycan yeni oyunlar üzrə şəhər, respublika, qitə və dünya çempionatları keçirən ilk ölkə olmağa layiqdir və real surətdə ola bilər.

Dövlət başçısı cənab İlham Əliyev ilk dəfə respublika Prezidentliyinə seçkilərdə iştirak edərkən çıxışlarının birində söyləmişdi ki, Prezident seçiləcəyi halda həm də Milli Olimpiya Komitəsinə başçılığı davam etdirəcək, ölkədə idmanın bütün növlərinin inkişafına bundan sonra da dəstək verəcək və yaxşı olardı ki, bizdə də yeni oyun yaradılaydı, Azərbaycan da idman aləminə oyun vermiş ölkəyə çevriləydi.

Mən də onilliklər ərzində bu gözəl arzu ilə yaşayır və fəaliyyət göstərirəm. Bu fikrin həyata keçirilməsi uğrunda illər ərzində tədqiqatlar aparıram. Bir oyunumuz üzrə yarış keçiriləcəyi təqdirdə idman aləminə masaüstü oyun vermiş ölkələr sırasına Azərbaycan da de-fakto daxil ediləcəkdir, Misir (dama), Hindistan (şahmat), İran (nərd), Çin (domino) kimi. İki oyunumuz üzrə yarış keçirilməsinə nail olacağımız halda idman şəhərinə çevrilmiş gözəl Bakımız Ginnesin Rekordlar Kitabına (GRK) "İdman aləminə daha çox masaüstü oyun vermiş şəhər" kimi düşə bilər. Azyaşlı uşaqlar üçün oyunlarımız üzrə yarış təşkil edəriksə eyni adlı nominasiyalar üzrə də GRK-ya düşmək imkanımız realdır. Qeyd edək ki, əgər hər hansı güclü idmançımız - Olimpiya oyunları, Dünya və Avropa çempionumuz qürurverici çempionluq titulunu Azərbaycana bir və ya bir neçə il müddətinə gətirə bilirsə, bizim oyunlarımız isə Azərbaycana masaüstü oyunun Vətəni adını əbədi olaraq gətirəcəkdir. Bütün bunlardan sonra isə yeni oyunların Vətəninə - Azərbaycana dünyanın hər tərəfindən gəlmək istəyən turistlərin sayı da təbii ki, qat-qat artacaqdır.

Oyun dəstlərinin istehsalı sadə, materiallar asan tapılan və ucuzdur - plastika, taxtadır. Eyni zamanda digər materiallardan da hazırlana bilər. Mahir ustalarımızın həmin dəstlərin suvenir variantlarını nəfis şəkildə yaratması mümkündür. Onları kompüter oyunları kimi də hazırlamaq olar. Yeni iş yerləri açılar. Gözəl dizaynla və Avropa standartlarına uyğun buraxılacaq məhsullar, eləcə də suvenirlər həm də turistlərin apara biləcəkləri xatirə əşyalarının çeşidini artırar. "Made in Azerbaijan" nişanlı məzmunca yeni və maraqlı brend məhsullar əllərdə gəzər, taxçaları bəzər.

**–Belə fərqli və perspektivli istiqamətdə işi davam etdirmək fikrindəsinizmi?**

–İdman Akademiyasında, İdman Kollecində xüsusi proqramlar üzrə bu istiqamətlərdə tədqiqatlar aparılması münasib olardı. Kafedralarda, elmi-tədqiqat laboratoriyalarında məqsədyönlü axtarış və tədris işlərinin aparılması dünya miqyasında Azərbaycanı yeni idman oyunları yaradılması üzrə mərkəzə çevirərdi, lider edərdi.

**Müsahibəni apardı:**
**M.MİRZƏ,**
**"Respublika".**

# "20 Yanvar tariximizin qəhrəmanlıq səhifəsidir" mövzusunda anım tədbiri

**Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsində 20 Yanvar faciəsinin 29-cu il dönümü ilə əlaqədar anım tədbiri keçirilib. Tədbir iştirakçıları Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.**



Tədbiri giriş sözü ilə açan Əmlak Məsələləri Dövlət Komitəsinin sədr müavini Rüstəm Şahbazov bildirib ki, müasir tariximizin səhifələrinə ən faciəli günlərdən biri kimi daxil olan 20 Yanvar, eyni zamanda xalqımızın müstəqillik, azadlıq uğrunda apardığı mübarizədə yüksək şücaətini və qəhrəmanlığını nümayiş etdirdi. 1990-cı ilin 19-20 yanvar tarixlərində totalitar Sovet rejiminin süqutu ərəfəsində dinc əhaliyə qarşı tutduğu divan, yüzlərlə günahsız insanın amansızlıqla qətlə yetirilməsi və yaralanması ilə nəticələnən hadisələr imperiyanın cinayətkar mahiyyətini bütün dünyaya bəyan etdi. Faciə günü ölkəsinin azadlığı, şərəf və ləyaqəti üçün canından keçməyə hazır olan Azərbaycan övladları əlisilahlı sovet ordusunun cəza tədbirlərinə məhəl qoymadan pozulmuş hüquqların və suverenliyin bərpası uğrunda şəhidlik zirvəsinə ucaldılar. Beləcə, 20 Yanvar ölkənin müstəqillik və azadlıq mübarizəsində xalqın birlik, qəhrəmanlıq salnaməsinə çevrildi.

Qeyd edilib ki, keçmiş sovet hərb maşınının ölkəmizdə həyata keçirdiyi cinayətə 1993-cü ilə kimi hakimiyyətdə olan şəxslərdən heç biri hüquqi-siyasi qiymətin verilməsi üçün tədbir görmədi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə yenidən qayıdışı ilə 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi. Ulu öndər təzyiq və təqiblərə baxmayaraq, 20 yanvar faciəsinin törədilməsində məsuliyyət daşıyanları ictimaiyyətə tanıtdırdı, bütün dünyanın gözü qarşısında xalqın faciəsində məsuliyyət daşıyanları ittiham etdi. Ümummilli lider Heydər Əliyev repressiya maşınının sərt formada işə düşdüyü bir vaxtda rejimin gerçək simasını açaraq keçmiş SSRİ və respublika rəhbərliyinə, eləcə də aparılan anneksiya siyasətinə qəti etirazını ifadə etdi, xalqımızın suveren hüquqlarına qəsd olunduğunu bildirdi. Bununla da o ölkə qarşısında cəsarətini, mərdliyini, müdrikliyini bir daha sübut etdi, dərin sarsıntı içində olan xalqına dəstək oldu.

Vurğulanıb ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ulu Öndərimizin siyasətini bu gün layiqincə davam etdirir. Belə ki, dövlət başçısı tərəfindən 1990-cı il yanvar ayında faciəli hadisələr zamanı Azərbaycan Respublikasının suverenliyi uğrunda həlak olanların əziz xatirəsi daim yad edilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən şəhid ailə üzvlərinin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədilə müvafiq Fərmanla "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü" təsis edilmişdir.

Daha sonra Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının sədr müavini Vüqar Rəhimzadə bildirib ki, keçmiş SSRİ rəhbərliyi tərəfindən Azərbaycan xalqının yenilməz iradəsini qırmaq, demokratiya və azadlıq uğrunda mübarizəsini boğmağa yönələn bu amansız cinayət nəticəsində 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda görünməmiş vəhşiliklər baş verdi. Günahsız insanlar, o cümlədən uşaqlar, qocalar və qadınlar qətlə yetirildi, yüzlərlə adam müxtəlif dərəcəli bədən xəsarəti aldı. 20 Yanvardan sonrakı günlərdə də Bakıda qırğın davam etdirildi. Sovet qoşunlarının təcavüzü nəticəsində Bakıda 134 mülki vətəndaş öldürülmüş, 600-dən çox adam yaralanmışdı. Öldürülənlər arasında beş millətin nümayəndələri, 20-dən çox qadın, uşaq var idi.

Digər çıxış edənlər bildirdilər ki, gündən-günə Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmlənir, ölkəmiz sürətlə inkişaf edir, qüdrətlənir, ordumuz güclənir. Bütün bunlar isə torpaqlarımızın erməni işğalından azad ediləcəyi günü yaxınlaşdırır.

Azərbaycan xalqı 20 Yanvar şəhidlərinin xatirəsini daim əziz tutacaq, onların fədakarlıqları xalqın yaddaşından heç zaman silinmə

**ƏMDK nin mətbuat xidməti**

# 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə əlaqədar Madriddə anım tədbiri təşkil edilib

**Azərbaycan Respublikasının İspaniya Krallığındakı səfirliyinin dəstəyi və İspaniyada yaşayan Azərbaycan icmasının təşkilatçılığı ilə Madrid şəhərində 20 Yanvar faciəsinin 29-cu ildönümü ilə əlaqədar tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə İspaniya ictimaiyyətinin nümayəndələri və bu ölkədə yaşayan soydaşlarımız iştirak ediblər.

Əvvəlcə 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Azərbaycan icmasının nümayəndəsi Cəlal Erken çıxış edərək deyib ki, Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün simvoluna çevrilmiş 20 Yanvar hadisəsi ölkəmizə qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlığından və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçə və meydanlarına çıxaraq buna qəti etirazını bildirən xalq kütlələrinə qarşı sovet hərbi qoşununun yeridilməsi Azərbaycanda misli görünməyən faciəyə səbəb olub. Vurğulanıb ki, 20 Yanvar faciəsindən dərhal sonra ümummilli lider Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqımızın kədərini bölüşməsi və sovet rejiminin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa etməsi ağrılı-acılı dövrdə xalqımıza dayaq və təsəlli olub. Məhz ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra - 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilib və cinayəti törədənlərin adları ictimaiyyətə açıqlanıb.



Daha sonra "20 yanvar 1990-cu il. Bakıda dinc əhalinin kütləvi şəkildə qətlə yetirilməsi" adlı sənədli film və 20 Yanvar faciəsinə həsr olunmuş fotosərgi nümayiş etdirilib. Sənədli film və fotosərgi İspaniya ictimaiyyəti tərəfindən böyük maraqla qarşılanıb, onlara faciə barədə ətraflı məlumat verilib.

**AZƏRTAC**

# "Buta Airways" Odessa və Xarkova aviareyslər yerinə yetirəcək

**"Buta Airways" loukost aviaşirkəti Bakıdan Ukraynanın daha iki şəhərinə - Odessa və Xarkova birbaşa uçuşlara başlayacaq.**

Odessaya uçuşlar cari ilin 16 may tarixindən etibarən həftənin cümə axşamı və bazar günləri, Xarkova uçuşlar isə 3 may tarixindən etibarən çərşənbə axşamı və cümə günləri yerinə yetiriləcək.

Ukraynaya yeni istiqamətlərin açılması iki ölkə arasında turist axınını daha da artıracaq. Qeyd edək ki, "Buta Airways" aviaşirkəti artıq Bakı və Kiyev arasında müntəzəm uçuşlar həyata keçirir.

Aviaşirkətin digər istiqamətləri kimi Odessa və Xarkova da minimal tarif 29 avro (bir tərəfə) təşkil edəcək.

Aviabiletləri artıq aviaşirkətin rəsmi internet saytında ("Büdcə" və "Standart" tarifləri ilə, həmçinin aviaşirkətin satış ofislərində ("Super" tarifi ilə) əldə etmək mümkündür.

Lou-kost aviaşirkət olaraq, "Büdcə" minimal tarifdə baqajın, əl yükünün daşınması, təyyarə göyərtəsində isti yeməklər, hava limanında qeydiyyat, eləcə də təyyarədə yer seçimi kimi əlavə xidmətlər ödəniş müqabilində təklif edilir.

10 kq-dək çəkisi olan əl yükü, çəkisi 23 kq-dək olan baqaj və hava limanında ödənişsiz qeydiyyatı nəzərdə tutan "Super" tarifi üzrə aviabiletləri satış ofislərində əldə edə bilərsiniz.




Saytda onlayn-qeydiyyat uçuşdan 24 saat əvvəl açılır və uçuşa 2 saat qalmış bağlanır. Onlayn-qeydiyyat bütün tariflərdə pulsuzdur.

Bütün yenilikləri və xəbərləri "Buta Airways"in sosial şəbəkələrdəki səhifələrində izləmək mümkündür:
facebook.com/ButaAirways
instagram.com/ButaAirways
twitter.com/ButaAirways
t.me/ButaAirways

"Buta Airways" Azərbaycanın ilk aşağı büdcəli aviaşirkətidir və "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) struktur bölməsidir. 2016-ci ilin dekabrında əsası qoyulmuşdur. İlk reys 2017-ci il sentyabrın 1-də yerinə yetirilmişdir. Aviaşirkətinin donanması müasir "Embraer" təyyarələrindən ibarətdir. Aviaşirkət Bakıda, Heydər Əliyev Beynəlxalq Aeroportunda yerləşir.

**"Buta Airways" aviaşirkətinin mətbuat xidməti**

# 90 nəfər oftalmoloji müayinə olunub

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Avtomobil Səyyar Klinikası "20 Yanvar Cəmiyyəti"ndə şəhid ailələri və əlilləri arasında tibbi aksiya keçirib.

Aksiya zamanı 90 nəfər oftalmoloji müayinə olunub. Tibbi müayinədən keçənlərdə daha çox refraksiya patologiyası və katarakta aşkarlanıb. Onlara mütəxəssislər tərəfindən tövsiyələr verilib.

Bu humanitar aksiyanın keçirilməsində əsas məqsəd 20 Yanvar faciəsində şəhid olanların ailələrini, əlillərini müayinə və müalicə etmək, həm də əldə olunmuş nəticələri yerindəcə həll etməkdir. Şəhid ailələrinə və əlillərə dövlət tərəfindən böyük diqqət və qayğı göstərilir.

Görülən işlərin davamı olaraq Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi tərəfindən 20 Yanvar şəhid ailələri və əlilləri oftalmoloji müayinə olunur.

**Səhiyyə Nazirliyinin Mətbuat Xidməti.**

# Enerji bazarının konsepsiyası, dizaynı və idarə edilməsi ilə bağlı seminar

**Energetika Nazirliyi və beynəlxalq ekspertlərin iştirakı ilə Texniki yardım və Məlumat mübadiləsi (TAİEX) aləti çərçivəsində enerji bazarının konsepsiyası, dizaynı və idarə edilməsi ilə bağlı seminar keçirilib. İki gün davam etmiş seminarın təşkilində əsas məqsəd enerji bazarında islahatlar, milli elektrik enerjisi və qaz bazarlarının yaradılması üzrə Avropa İttifaqı ölkələrinin təcrübəsinin öyrənilməsindən ibarətdir.**

Energetika nazirinin müavini Elnur Soltanov enerji təhlükəsizliyinin mühüm elementləri kimi ətraf mühitə təsirlərin azaldılması və istehlakçıların sərfəli qiymətə enerji resurslarına çıxışının təmin edilməsində bazar münasibətlərinin rolundan danışıb. O, enerji bazarının yaradılması, tənzimləmə mexanizminin formalaşdırılması kimi məsələlərin ölkə Prezidentinin müvafiq Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kommunal xidmətlərin inkişafına dair Strateji Yol Xəritəsi"ndə əksini tapdığını qeyd edib.

Nazirliyin Aparat rəhbəri Zaur Məmmədov isə energetika sektorunda yeni münasibətləri tənzimləyən qanunvericilik bazasının yaradılması istiqamətində görülən işlərdən bəhs edib.

Sonra Azərbaycanın elektrik enerjisi və qaz sektorlarının mövcud vəziyyətinə dair məlumatlar dinlənilib. Elektrik enerjisi istehsalı, qaz hasilatı, paylama sektorlarının strukturu və mülkiyyəti, elektroenergetika və qaz sektorları arasında əlaqə təhlil edilib. Tədbir TAİEX ekspertləri Rozeta Karova, Tom Maes və Mart Otsun enerji sektorunda islahatların əsas mərhələləri, enerji sahəsində fəaliyyətlərin effektiv bölgüsü, eləcə də Milli Tənzimləmə Qurumunun vəzifə və səlahiyyətləri ilə bağlı Avropa təcrübəsinə dair çıxışları ilə davam etdirilib.

**Səfər MAHMUDZADƏ,**
**"Respublika".**

# Azercell NNTV xidmətini təqdim edir

*Artıq mobil telefonda 150 televiziya kanalını izləmək imkanından zövq al*

**"Azercell Telekom" MMC abunəçilərinə mobil telefonda teleyayım imkanlarını yaradan NNTV xidmətini təqdim edir. Bu xidmət vasitəsilə Azercell abunəçiləri 150 televiziya kanalını internet üzərindən onlayn surətdə və yüksək keyfiyyətdə izləmə imkanı əldə edirlər.**

NNTV xidməti heç bir əlavə avadanlıq (kabel, anten və s.) olmadan telekanallara abunə olmaq imkanı yaradır. Bu texnoloyi yenilik sayəsində telekanalları istənilən yerdə, istənilən provayderin şəbəkəsində yüksək keyfiyyətdə - HD formatda izləmək mümkündür. Dünyanın ən məşhur və ən çox izlənilən kanallarını smartfona daşıyan NNTV xidmətinin əsas üstünlüyü ondadır ki, abunəçi kanalları yalnız ölkə ərazisində deyil, xaricdə olarkən də izləyə bilər. Bundan əlavə, kanaldan müəyyən video məzmunu yükləyib, sonra da izləmək mümkündür.

Mobil TV xidmətindən yararlanmaq istəyən abunəçilər günlük və ya aylıq paketi seçə bilərlər. Aylıq paketi aktiv etmək üçün AY sözünü, Günlük paketi aktiv etmək üçün isə GUN sözünü yazıb 5773 nömrəsinə göndərmək lazımdır. Kanalları izləyə bilmək üçün xidmətə qoşulduqdan sonra Google Play (Android) və App Store (iPhone) platformalarından NNTV mobil tətbiqini yükləmək lazımdır.

NNTV xidməti ilə bağlı ətraflı məlumatla www.azercell.com saytından tanış olmaq mümkündür.

Əlavə məlumat üçün https://www.azercell.com/az/personal/services/partner_services/nntv/ səhifəsinə daxil olun. ■

# Elektrik enerjisinin verilməsində problemlər olmayıb

Ölkə ərazisində kəskin hidrometeoroloji hava şəraiti abonentlərin fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təchizatında heç bir problem yaratmayıb. "Azərişıq" ASC-nin əməkdaşları elektrik enerjisinin təhlükəsizliyi üçün əvvəlcədən zəruri tədbirlər görüblər. Hazırda Bakı şəhəri və bütün rayonlarda "Azərişıq" əməkdaşları gücləndirilmiş iş rejimində çalışırlar. Baş verə biləcək qəzaların dərhal aradan qaldırılmasını həyata keçirmək üçün "Azərişıq" ASC-nin rəhbərliyi tərəfindən müvafiq əmr imzalanıb. Əmrə əsasən məsul şəxslərdən ibarət növbətçilik təşkil edilib, eyni zamanda sistem əhəmiyyətli yarımstansiyalara birbaşa məsul şəxslər təyin ediliblər.

Paylayıcı elektrik verilişi xətlərinin təkrar yoxlanılması və nəzarətdə saxlanılması təmin edilib. Qəza təhlükəsi ehtimal edilən ərazilərdə əməkdaşlar qabaqlayıcı tədbir görüblər. Texniki Direktorluğa tabe olan xidmət sahələrində və Avtonəqliyyat İdarəsində zəruri olan materialların ehtiyatı yaradılıb. 199-Çağrı Mərkəzi gücləndirilmiş iş rejimində fəaliyyət göstərir.

**Qədir ASLAN,**
**"Respublika".**

## "Bakı şəhərinin Baş planının hazırlanması" işlərinin satınalınması barədə

## AÇIQ TENDER ELANI

Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi (bundan sonra - Komitə), Azərbaycan Respublikası Prezidentinin "Bakı şəhərinin Baş planının hazırlanması ilə bağlı tədbirlər haqqında" 27 iyun 2018-ci il tarixli 256 nömrəli Sərəncamının icrası ilə əlaqədar "Bakı şəhərinin Baş planının hazırlanması" işlərinin satın alınması məqsədilə açıq tenderə təkliflər təqdim etməyə dəvət edir. Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun şərtləri əsasında 1 lot üzrə keçirilir.

Açıq tenderdə, ərazi planlaşdırma (Baş planların) sənədlərinin hazırlanması sahəsində müfaviq beynəlxalq təcrübəyə və təcrübəli mütəxəssislərə malik texniki və maliyyə imkanları, idarəetmə səriştəsi, peşəkarlığı və satınalma müqaviləsini bağlamaq səlahiyyəti olan, vergi və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəlikləri olmayan hüquqi şəxslər iştirak edə bilərlər. Görüləcək işlərin tərkibi və həcmi haqqında ətraflı məlumat layihə tapşırığında verilir.

Tenderdə iştirak etmək istəyənlər Komitəyə yazılı müraciət etdikdən və aşağıda qeyd edilmiş bank hesabına 850 (səkkiz yüz əlli) Azərbaycan manatı və ya 500 (beş yüz) ABŞ dolları məbləğində geri qaytarılmayan iştirak haqqını ödədikdən sonra Azərbaycan və ingilis dillərində tərtib edilmiş açıq tenderin əsas şərtlər toplusunu ala bilərlər:

*VÖEN: 1400032621;*
*Hesab: AZ73CTRE00000000000002278501;*
*AZ03İBAZ36020018409328518204*
*Təsnifat kodu: 142340, səviyyə kodu: 7*
*Bankın rekvizitləri:*
*Adı: Dövlət Xəzinədarlıq Agentliyi;*
*Kodu: 210005;*
*VÖEN: 1401555071;*
*Müxbir hesabı: AZ41NABZ01360100000000003944*
*SWİFT.BİK.CTREAZ22.*

Ödəniş sənədində maliyyələşdirmənin məqsədi göstərilməlidir.

Təqdim olunmuş ərizə əsasında iştirakçılara açıq tenderin əsas şərtlər toplusu elektron şəkildə göndəriləcəkdir.

İddiaçı öz təklifində satınalma müqaviləsi ilə əlaqədar tətbiq olunacaq bütün növ vergiləri (ƏDV daxil olmaqla) nəzərə almalıdır.

Tenderdə iştirak etmək istəyənlər iddiaçı kimi qeydiyyata alınması üçün 07 fevral 2019-cu il yerli vaxtla saat 15:00-dək Komitənin inzibati binasına və ya poçt ünvanına (tender təklifi və tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı istisna olmaqla) aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün ərizə;*
*2. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*4. Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*5. Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətini təsdiq edən sənəd;*
*6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
*8. İddiaçının son bir ildəki fəaliyyəti barədə vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*9. İddiaçının vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması barədə vergi orqanından arayış;*
*10. Tenderdə iştirak etmək istəyən iddiaçı və yaxud konsorsium qismində iştirak edən iddiaçıların hər hansı biri tərəfindən şəhərsalma sənədlərinin hazırlanması üzrə xüsusi razılıq (lisenziya) sənədinin surəti;*
*11. İddiaçının müflis elan olunmaması, əmlakı üzərində həbs qoyulmaması, əmlakın girov qoyulması və digər formada öhdəliklərə yüklənməməsi, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə şirkətin özü tərəfindən verilmiş arayış, habelə tenderin əsas şərtlər toplusunda göstərilən digər sənədlər.*

Sənədlər iki nüsxədə (əsli və surəti) olmaqla tərtib edilməlidir. Xarici ölkələrdən olan iddiaçıların təqdim etdikləri sənədlərlə birlikdə həmin sənədlərin Azərbaycan dilinə tərcümə olunmuş nüsxəsi əlavə edilməlidir.

İddiaçılar ixtisas dərəcələrinin artırılması məqsədilə konsorsium yarada bilərlər. Bu halda, 1-11-ci bəndlərdə qeyd olunan sənədlərdən əlavə, həmçinin konsorsium yaradılması barədə müqaviləni, eləcə də konsorsium iştirakçısı olan hər bir şirkət barədə 6-11 bəndlərində göstərilən sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tender təklifini və tender təklifinin bank təminatını bağlanmış, imzalanmış və möhürlənmiş ikiqat zərfdə 18 fevral 2019-cu il yerli vaxtla saat 15:00-a qədər Komitənin Azərbaycan Respublikası, Bakı şəhəri, Füzuli küçəsi, 65 ünvanında yerləşən inzibati binasına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim edilmiş təklif zərfləri açılmadan geri qaytarılacaqdır. Tender təklifləri Azərbaycan və ingilis dillərində, iki nüsxədə (əsli və surəti olmaqla) tərtib edilməlidir.

İddiaçıların tender təklifi təklif zərflərinin açıldığı tarixdən sonra azı 30 bank günü (ən azı 11 aprel 2019-cu il tarixinə kimi) qüvvədə olmalıdır, tender təklifi qiymətinin 1%-i həcmində bank təminatının qüvvədə olma müddəti isə tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox (ən azı 27 may 2019-cu il tarixinə kimi) olmalıdır.

İddiaçıların təklifləri olan zərflərin açılışı 19 fevral 2019-cu il yerli vaxtla saat 15:00-da yuxarıda göstərilən ünvanda keçiriləcəkdir. İddiaçıların səlahiyyətli nümayəndələri zərflərin açılışında iştirak edə bilərlər:

İddiaçılar bu tenderin əsas şərtlər toplusunda göstərilmiş keyfiyyət və qiymət seçim (KQS) üsuluna əsasən seçiləcəkdir.

Tender təklifi texniki və maliyyə təkliflərindən ibarət olmalıdır.

Texniki təklifin qiymətləndirmə meyarları:
- iddiaçının analoji təcrübəsi - 30 bal;
- təklif olunan iş planı və metodikanın layihə tapşırığına uyğunluğu - 25 bal;
- əsas heyətin (mütəxəssislərin) ixtisas dərəcəsi və təcrübəsi - 45 bal.

Texniki qiymətləndirmənin minimal keçid balı - 70 bal.

Maliyyə təklifinin qiymətləndirmə meyarı - ən aşağı qiymətdir.

Açıq tender elanı rəsmi internet saytında yerləşdirilmişdir.

**Əlaqələndirici şəxs - Günel Məlikova.**
**Telefon: (+99412) 493-34-67 (dax.129)**
**Faks: (+99412) 498-14-14**
**E-mail: masterplan@arxkom.gov.az**
**Ünvan: AZ1014, Bakı şəhəri, Füzuli küçəsi, 65.**

**TENDER KOMİSSİYASI.**

## BİLDİRİŞ

"AzerGold" QSC tərəfindən "Ölkədaxili açıq məkanda reklam xidmətinin satın alınması" üçün 01 noyabr 2018-ci il tarixində elan edilmiş açıq tender üzrə iştirakçıların sayı 3 (üç)-dən az olduğu üçün növbəti dəfə ilkin sənədlərin (tender təklifi və təklifin təminatı istisna olmaqda digər sənədlər) qəbulu tarixi 30 yanvar 2019-cu il saat 15.00-dək, tenderə təkliflərin və təkliflərin təminatı sənədlərinin qəbulu isə 07 fevral 2019-cu il saat 15.00-dək uzadılır. Sənədlər möhürlənmiş, imzalanmış və ikiqat zərfdə olmaqla təqdim olunmalıdır. Tender üzrə təklif zərflərinin açılışı 08 fevral 2019-cu il tarixində saat 15.00-da Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanında keçiriləcəkdir.

